42_27 IYUl-QARA.qxd 11/6/2025 8:44 PM Page 1

UNİKAL

№42 (2272) 7 noyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Möhtəşam qələbənin 5-ci ildönümü: Zəfər paradı keçiriləcək



Səh.3

## Elman Rüstəmovun şirkətləri bağlanır

*Azərbaycanda kənd təsərrüfatı sahəsində eyni şəxsə məxsus iki şirkətin ləğvi diqqət çəkib. Belə ki, həm "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC, həm də "Qarabağ Taxıl Aqro" MMC rəsmi olaraq ləğv olunduqlarını elan ediblər. "Oxu.az" rəsmi mənbələrə istinadən xəbər verir ki, "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC 14.03.2005-ci ildə dövlət qeydiyyatına alınıb və 9 050 010 manat nizamnamə kapitalına malik olub. Hüquqi ünvanı Beyləqan rayonu, Örənqala kəndi göstərilib. Eyni prosedur çərçivəsində "Qarabağ Taxıl Aqro" MMC də ləğv olunub. Bu şirkət 10 iyul 2015-ci ildə dövlət qeydiyyatına alınıb və nizamnamə kapitalı 6 371 963 manatdır. Hüquqi ünvanı isə Şabran rayonunun Dəmir Yolunun...*

Səh.6

## "Zəfər paradı Azərbaycanın şanlı hərb tarixinin ən parlaq səhifəsidir"



*Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr edilmiş Zəfər paradının əhəmiyyətindən, paradda hansı ölkələrdən aldığımız yeni texnikaların nümayiş etdiriləcəyindən, Pakistanın Baş nazirinin, Türkiyə Prezidentinin paradda iştirak...*

Səh.4

## AzTV-dəki 26 milyonluq müəmmalı məsələ




*Xəbər verildiyi kimi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC (AzTV) üzrə dövlət vəsaitlərinin və digər əmlakın idarə olunmasının auditinin nəticələri açıqlanıb. Bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi"ndə əksini tapıb.*

Səh.5

## "Kadr çatışmazlığı ilə bağlı layihə hazırlanır" - Səhiyyə naziri



*"Səhiyyə sahəsində kadr çatışmazlığı ilə bağlı Səhiyyə Nazirliyi, TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi birlikdə müzakirələr keçirib və layihə hazırlanıb. Təklifimiz Tibb Universitetinə və Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna yönəldilib".*

Səh.3

# "Afət Fərmanqızı ölkəyə girə bilməz, saxlanılacaq"



***Müğənni Vəfa Şərifova həmkarı Afət Fərmanqızı ilə bağlı səsləndirdiyi iddia ilə gündəm yaradıb.***

Canlı efirdə çıxış edən sənətçi bildirib ki, Afət Fərmanqızı hazırda axtarışdadır və buna görə də ölkəyə daxil ola bilmir: "Afət Fərmanqızı bu ölkəyə girə bilməz. Çünki o, axtarışdadırMən hüquqşünas deyiləm. Bu mövzuda savadsız ola bilərəm. Dəqiq bilirəm ki məhkəməyə müraciət edən kimi qəbul olunmur bu zaman alır. Kim nə deisə məhkəm qəbul edib çağırmır. Sübutlu müzakirəyə açıq mövzudursa bəli. Hazırda məhkəmə davam edir. Yalandan hamiləlik kağızı göndərdi. Bir il keçdi uşaq nə oldu deyir".

Verilişə telefon bağlantısı ilə qoşulan müğənninin vəkili Elməddin bəy də bu məlumatı təsdiqləyib: "Bəli, onun barəsində axtarış elan olunub. Hava limanına endiyi anda saxlanılacaq," - deyə vəkil qeyd edib.

Müğənnilərin qalmaqalı sosial mediada geniş müzakirə yaradıb. Verilişə telefon bağlantısı ilə qoşulan müğənninin vəkili Elməddin bəy də bu məlumatı təsdiqləyib: "Bəli, onun barəsində axtarış elan olunub. Hava limanına endiyi anda saxlanılacaq," - deyə vəkil qeyd edib.

Müğənnilərin qalmaqalı sosial mediada geniş müzakirə yaradıb.

# "Məndən ötrü ölürdü, ürəyi partlayırdı" - Mətanət Əsədova

***Xəbər verdiyimiz kimi, olan müğənnilər Mətanət Əsədova və Manaf Ağayev barışıblar.***



Birgə efirə çıxan ifaçılardan xanım sənətçi hələ Manafla barışmadığını qeyd edib: "Hələ onunla barışmamışam. Könlüm almalıdır. Özü bilir necə ala bilər. Çünki adam qarşılamağını, dost yolunda etdiyi hərəkətləri bilirəm. O elə bil hərəkət etməlidir ki, ondan ürəyim açılsın. İncimişəm. Özü də bilir ki, yanında milyon oxuyan olsa, ondan o ruhu ala bilməz, oxuya bilsə, qulağımı kəsərəm. Zarafatını, mimikasını kənardan tutan mənəm. Darıxırdı, ürəyi partlayırdı, ölürdü, boynuna alsın. Nadir Qafarzadənin balasının toyunda Ağayevin həyat yoldaşı Fərqanə xanımı gördüm, bizim masaya əyləşdirdim, özü də gəldi onun yanında oturdu. Mən o xanımı salamlayıram, bağrıma basıram, çox mehriban xanımdır, dözümlüdür. Biz düşmən deyilik, bir-birimizin balasını öldürməmişik, çörəyini almamışıq, sözdür deyilib. Amma mən efirə çıxandan "Ağayev" deyib qışqırmışam".

# "Orasını-burasını düzəltdirib, sponsor da tapır..." - Ruhəngiz Musavi



***"Oz aramızda" verilişinin qonağı olan Əməkdar artist Ruhəngiz Musəvi televiziya proqramları ilə bağlı narazılığını dilə gətirib.***

Milli.Az xəbər verir ki, sənətçi efirdə emosional çıxışı ilə diqqət çəkib. O, bəzi verilişlərdə sənətə və sənətkara kifayət qədər dəyər verilmədiyini bildirib: "Efirlərə baxa bilmirik. Nə qədər eyni adamı çağırarlar? Mən heç vaxt efir xəstəsi olmamışam. Ruhəngiz Musəvi reklam lazım deyil, o tarixə düşən müğənnidir. Mənim bir dənə o filmim milyon klipə dəyərə. İndikilər sənəti sevib gəlmirlər. Orasını-burasını düzəltdirib, bir nəfər də sponsor tapırlar. Efirə çıxırlar, səsləri də yoxdur. Fonaqramla oxuyub, sonra da heç kimi bəyənmirlər. Sənətimiz batır gedi".

Əməkdar artistin bu fikirləri tamaşaçılar arasında geniş müzakirələr yaradıb.



# Mənzurə Musayeva qəzaya düşdü

***Müğənni Mənzurə Musayeva yol-nəqliyyat hadisəsinə düşüb.***

Hadisə barədə məlumat "Rəngarəng" verilişində açıqlanıb. Məlumata görə, sənətçi ötən gecə avtomobil qəzası keçirib.

Qəza nəticəsində müğənninin idarə etdiyi nəqliyyat vasitəsi zərər görsə də, xoşbəxtlikdən Mənzurə Musayeva xəsarət almayıb.

Hazırda hadisə ilə bağlı araşdırma aparıldığı bildirilir.

# "Ürəyin ağrısa da, gülümsə" - Aysel Teymurzadə

***"Avroviziya" təmsilçilərimizdən olan Aysel Teymurzadə sosial media hesabında paylaşım edib.***



İfaçı yeni yayımladığı fotosuna bunları yazıb: "Ürəyin ağrısa da, gülümsə. Qırılmağa başlasa da, gülümsə. Göydə buludlar keçib gedəcək. Qorxu və kədərin içindən gülümsəsən, bəlkə də sabah günəşin sənin üçün parıldadığını görəcəksən".

Qeyd edək ki, Aysel Xalq artisti Murad Adıgözəlzadə ilə ailə qurduqdan sonra sənətdən uzaqlaşıb. Bir müddət əvvəl isə onların ayrılıq xəbəri yayılıb. Ayselin bu nikahdan 3 övladı var.

# "Biz səhnəyə çıxanda gündəm rahatlanır" - Seyidcahan

***Əməkdar artist Elza Seyidcahan sosial şəbəkədə sənət və səhnə haqda paylaşım edib.***



Axşam.az xəbər verir ki, yeni şəkillərini izləyiciləri ilə bölüşən sənətçi paylaşımında sənətin dəyərliliyindən və əsl sənətkarların zamanla ölçülmədiyini bildirib: "Əsl sənətkaların dövrü keçmir. O, hər dövrdə səhnəni silkələyir, hər notu ilə iz qoyur. Bəziləri gündəmdə qalmaq üçün səhnəyə çıxır, amma biz səhnəyə çıxanda gündəm rahatlanır. Zaman dəyişir, adlar gəlir-gedir, amma sənət qalır, səhnə isə həmişə sahibini tanıyır".

42_27 IYUI-QARA.qxd 11/6/2025 8:51 PM Page 3





# Xidmət rəisi Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərə aydınlıq gətirdi

***Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı təkliflər "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq dövlət büdcəsinin dayanıqlığının təmin edilməsi, strateji sahələrin inkişafının stimullaşdırılması, investisiya mühitinin və kapital qoyuluşlarının artırılması hədəfləri nəzərə alınmaqla hazırlanıb.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin müzakirəsi zamanı Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli deyib.

O bildirib ki, layihədə ölkə Prezidentinin müvafiq fərman və sərəncamlarından irəli gələrək Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf proqramı çərçivəsində vergi və sosial sığorta güzəştlərinin tətbiqi, balıqçılıq və kənd təsərrüfatı sektoruna dövlət dəstəyinin genişləndirilməsi kimi tapşırıqlar da nəzərə alınıb.

O Nəzərli qeyd edib ki, təkliflər layihəsi həmçinin muzdlu iş üzrə mövcud vergi güzəştlərinin 2026-cı ildən sonrakı dövrə tənzimlənməsi, aksiz siyasətinin beynəlxalq tələblərə uyğunlaşdırılması, yerli avtomobil istehsalının təşviqi, idxaldan asılılığın azaldılması və daxili bazarın qorunması, vergi nəzarətinin və şəffaflığın artırılması, eləcə də qanunsuz sahibkarlıqla mübarizənin gücləndirilməsi nəzərdə tutur: "Vergi Məcəlləsinə dəyişiklik layihəsi 3 əsas blokdan ibarət olmaqla ümumilikdə 45 maddə üzrə 145 dəyişiklik təklifini əhatə edir. Layihənin əsas istiqamətləri investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi daxilolmalarının və büdcə gəlirlərinin səmərəli tənzimlənməsi, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və "kölgə iqtisadiyyatı" ilə mübarizənin gücləndirilməsindən ibarətdir. Dəyişikliklər iqtisadiyyatın bir sıra strateji sektorlarını - yerli avtomobil istehsalı, gəmiqayırma, neftqaz sənayesi, dövlət-özəl tərəfdaşlığı, balıqçılıq, kənd təsərrüfatı, ictimai iaşə və əmək bazarını əhatə edir. Bu istiqamətlər üzrə vergi siyasətinin çevikləşdirilməsi və güzəşt mexanizmlərinin tətbiqi iqtisadi aktivliyi artırmaq, ixrac potensialını genişləndirmək və dövlət gəlirlərinin sabitliyini qorumaq məqsədi daşıyır".

# Müflis banklarla bağlı yeni qərar olacaq

***Azərbaycanda ödəmə qabiliyyətini itirmiş bankların qeyri-işlək (toksik) aktivlərinin satışının əlavə dəyər vergisindən (ƏDV) azad edilməsi müddəti uzadıla bilər.***

"Unikal" xəbər verir ki, bu, 2026-cı ilin büdcə zərfinin layihəsində öz əksini tapıb. Bununla bağlı Vergi Məcəlləsində dəyişiklik edilməsi planlaşdırılır.

Təklif olunan dəyişikliyə əsasən, ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi, habelə bankın iflas proseduru çərçivəsində aktivlərinin təqdim edilməsi - 2017-ci il yanvarın 1-dən 14 il müddətinə ƏDV-dən azad edilir. Hazırda bu müddət 9 ildir.

# Sabiq nazirin vaxtilə deputat olmuş qardaşı iflasın bir addımlığında

## Ramiz Mehdiyevin keçmiş "sağ əl"i mal-mülkünü satmaqla canını qurtara biləcəkmi? - Elton Məmmədovu gözləyən daha bir təhlükə!

***Adı "Ramiz Mehdiyev işi"ndə və Azərbaycan Milli Elmlər Akademiyasındakı (AMEA) 3 milyon manatlıq yeyintidə hallanan keçmiş deputat, hazırda isə Akademiyanın Sosial Xidmətlər Şöbəsinin müdiri olan Elton Məmmədov ətrafında söz-söhbət bitmir. Son iddialara görə, sabiq deputat mal-mülkünün bir hissəsini satmaq məcburiyyətində qalıb.***

Məsələ burasındadır ki, ötən həftə Baş Prokurorluq Elton Məmmədovla bağlı rəsmi açıqlama yaymışdı. Açıqlamada bildirilirdi ki, E.Məmmədovun Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi üzrə istintaqa çağırılması xəbərini təkzib etməsi yalan informasiyadır. O da vurğulanırdı ki, AMEA-da baş verən qanunsuzluqlar barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla israf etmə) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə ibtidai istintaqı davam etdirilən cinayət işi üzrə 3 milyon manat büdcə vəsaitinin əsassız olaraq xərclənməsinə şübhələr müəyyənləşdirilib, istintaq tədbirləri nəticəsində əsassız olaraq xərclənmiş 3 milyon manat büdcə vəsaitinin Elton Məmmədov tərəfindən tam şəkildə dövlət büdcəsinə ödənilməsi təmin edilib.



"Oxu24"-ün məlumatına görə, sabiq deputat həmin vəsaiti məhz mal-mülkünün bir hissəsini satmaqla ödəyib. Belə ki, o, Novxanı qəsəbəsindəki dəbdəbəli bağ evini, 3 ədəd son model avtomobili, "20 Yanvar" metrosu ətrafında yerləşən kafesini, "MAİN" Yaşayış Kompleksində beş ədəd 2 və 3 otaqlı mənzilləri, böyük sahəyə malik avtoqarajı, Həsən Əliyev küçəsində - keçmiş "Tramvay Parkı"nın yerində yerləşən şirkətin inşa etdiyi hündürmərtəbəli binadakı iki mənzili dəyər-dəyməzinə satıb.

Xatırladaq ki, E.Məmmədov keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşıdır.

Qəzetimizin ötən sayında yazmışdıq ki, Məmmədovlarla Mehdiyevin dərin əlaqələrinin kökü illər öncəyə gedib çıxır. Hətta Ziya Məmmədovun nəqliyyat naziri olarkən Göyçayda, mənzərəli bir yerdə dəbdəbəli villa tikdirərək Ramiz Mehdiyevə hədiyyə etdiyi məlumdur.

Hərçənd, E.Məmmədovun bir müddət əvvəl "boz kardinal"la münasibətləri pisləşmişdi. Belə ki, Mehdiyev AMEA-ya prezident təyin olunduqdan sonra sadiq adamı kimi onu "Yüksək Texnologiyalar Parkı"nın direktoru vəzifəsinə gətirmişdi. Sonradan isə E.Məmmədov Akademiyanın işlər idarəsinin müdiri vəzifəsində çalışıb. İddialara görə, R.Mehdiyev hələ Prezident Administrasiyasına (PA) rəhbərlik etdiyi dövrdə sabiq deputata böyük bir məbləğ müqabilində Azərbaycanın iri şəhərlərindən birinə icra başçılığı boyun olub. Lakin həmin vədi yerinə yetirə bilməyib. AMEA-ya prezident seçildikdən sonra isə keçmiş deputatın könlünü almaq üçün onu öz yanına gətirib. Aradan bir müddət keçib və Mehdiyevlə Məmmədov arasında maraq toqquşması yaranıb. İddia edilir ki, Akademiyada "boz kardinalın" "qara kassa"sına çevrilən sabiq deputat vaxtilə Mehdiyevə icra başçısı olmaqdan ötrü rüşvət kimi verdiyi pulları "çıxarmaq" üçün qısa vaxtda ondan xəbərsiz xeyli vəsaiti cibinə qoyub. Bu "ikili" arasında münasibətlər də elə o vaxtdan soyuyub. Ancaq yaranmış situasiyada dəyişən heç nə yoxdur: Mehdiyevlə Elton Məmmədov AMEA-dakı külli miqdarda yeyintiyə bir yerdə qol qoyublar, deməli, cəzasını da bir yerdə çəkməlidirlər. Əlbəttə, hüquq-mühafizə orqanlarının apardığı araşdırma nəticəsində və hüquqi müstəvidə!

Digər tərəfdən, sabiq nazirin qardaşı tərəfindən satıldığı deyilən əmlaklar onun varidatının kiçik bir hissəsidir. Bəzi ekspertlərin fikrincə, istər E.Məmmədov, istərsə də korrupsiya səbəbindən sorğu-sual edilən, istintaqa çəkilən və haqqında həbs olunan şəxslər barəsində vacib məqamlardan biri budur: onların bütün sərvətləri təhqiqat predmetinə çevrilməli, hər qəpik-quruşa belə necə sahib olduqları araşdırılmalı və sonda bir müsadirə qərarı veriləcəksə, heç nə diqqətdən kənarda qalmamalıdır. Bir sözlə, hansısa korrupsionerin dövlətdən oğurladığı vəsaiti elə dövlətdən oğurladığı vəsaitin bir hissəsi ilə ödəməsi hələ heç nəyi həll etmir. Dövlətdən oğurlanan vəsaitin qalan hissəsi ilə bağlı da hüquqi hesab soruşulmalıdır. Bu nöqteyi-nəzərdən Elton Məmmədovla bağlı baş verənlərin sonrakı mərhələsi maraq doğurur.

Bu arada "Unikal"ın əldə etdiyi məlumata görə, sabiq nazirin keçmiş deputat qardaşı AMEA-dakı yeyinti ilə bərabər, Bakı Beynəlxalq Avtovağzal Kompleksinin inşasındakı mənimsəmələr səbəbindən də hüquqi məsuliyyətə cəlb oluna bilər. Xatırladaq ki, həmin Kompleksin tikintisini 2005-2009-cu illərdə məhz E.Məmmədova məxsus şirkət həyata keçirib. Bəzi iddialardan belə çıxır ki, o, həmin vaxt nəqliyyat naziri olan qardaşı Ziya Məmmədovun tövsiyəsi ilə "Bakı-XXI Əsr" MMC-ni yaradıb. Bundan sonra adı çəkilən keçmiş nazir Bakı Beynəlxalq Avtovağzal Kompleksinin inşasını sözügedən MMC-yə həvalə edib. Mətbuatda yayılan xəbərlərə görə Kompleksin 80-100 milyon dollara başa gəldiyi və bu vəsaitin önəmli hissəsinin mənimsənildiyi aydınlaşır. Aradan illər keçməsinə baxmayaraq, E.Məmmədovun, üstəlik, həmin vaxt nəqliyyat naziri olmuş qardaşı Z.Məmmədovun da həmin yeyinti iddiaları səbəbindən sorğu-sual edilməsi mümkün görünür.

***Toğrul Əliyev***

42_27 IYUI-QARA.qxd 11/6/2025 8:53 PM Page 4



# Sabiq biznesmen-deputatın adı ətrafında ilginc müəmma

## Onun uzun illər rəhbərlik etdiyi məşhur şirkət dividendləri ödəmir? - İlginc detallar

***"European Tobacco-Baku" ASC-nin səhmdarları narazıdırlar. "Biz 25 ildir bu şirkətin səhmdarıyıq, amma bu vaxta qədər 200 manat belə dividend ala bilməmişik" - deyə həmin səhmdarlardan biri Billurə Hacıbəyova deyib.***

Onun sözlərinə görə, əvvəlki adı "European Tobacco-Baku" olan "Baku International Tobacco" şirkəti uzun illərdir səhmdarlara dividendləri tam şəkildə ödəmir.

Şikayətçi bildirir ki, şirkətin rəhbəri Azər Süleymanlı, müavini isə Orxan Balakişiyevdir: "Onlar səhmdarlara səhmləri 7 min manata satmağı təklif ediblər və həmin səhmlərin



dəyərinin 6 qəpik olduğunu qeyd ediblər".

Billurə Hacıbəyovanın sözlərinə görə, 2020-ci ildən bəri şirkət onlara hər il cəmi 10-15 manat dividend verir. Sonuncu dəfə 2023-cü ildə 11 manat 70 qəpik məbləğində dividend aldıqlarını deyən səhmdar bildirib ki, həmin vaxt onlara heç bir qəbz təqdim olunmayıb, yalnız adlarının qarşısına məbləğ qeyd edilərək imza atdırılıb: "Şirkətin satış dövriyyəsi yüksək olsa da, illik dividendlərin bu qədər az olması əsassızdır. Məsələnin hüquqi tərəfi ilə bağlı isə artıq məhkəmə prosesi də keçirilib. Məsələ üzrə Bakı Kommersiya Məhkəməsində, eləcə də Apellyasiya və Ali Məhkəmə instansiyalarında bizim xeyrimizə qərar çıxarılıb".

Billurə Hacıbəyova iddia edir ki, səhmdarların suallarına nə vəkil, nə də şirkət rəhbərliyi cavab verir, iclaslara isə ASC-nin sədri Tural Qasımov qatılmır.

Məsələ ilə bağlı "Baku International Tobacco" MMC-nin baş direktorunun müavini Orxan Balakişiyev Yeniavaz.com-a bildirib ki, şirkət 12 iyun 2017-ci il tarixindən etibarən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət qeydiyyatına alınıb və müstəqil hüquqi şəxs kimi fəaliyyət göstərir: "European Tobacco-Baku" ASC tam fərqli hüquqi subyektdir və hazırda qeyd olunan ünvanda heç bir fəaliyyəti mövcud deyil. "Baku International Tobacco" MMC-nin hüquqi ünvanı Bakı şəhəri, Nizami rayonu, Köndələn I küçəsidir". Orxan Balakişiyev deyir ki, çaşqınlığın əsas səbəbi "European Tobacco-Baku" ASC-nin hüquqi ünvanının hələ də "Baku International Tobacco" MMC-nin fəaliyyət göstərdiyi ünvanda qalmasıdır: "Bununla bağlı həm ASC rəhbərliyinə, həm də aidiyyəti dövlət orqanlarına ünvanın dəyişdirilməsi barədə rəsmi müraciətlər göndərilib".

Orxan Balakişiyev səhmdarların məsələni ictimailəşdirməsinə də münasibət bildirib: "Son illərdə bəzi şəxslər "Baku International Tobacco" MMC-yə müraciət edərək əsassız tələblər irəli sürüblər. Şirkət bu şəxslərlə bir neçə dəfə görüş keçirib, vəziyyətin hüquqi əsaslarını izah edib, lakin bəzi səhmdarlar yenə də şirkətin adını ictimaiyyət qarşısında hallandırırlar. Həmin şəxslər nominal dəyəri 6 qəpik olan 28 ədəd səhmə əsaslanaraq 40-50 min manat həcmində birdəfəlik ödəniş tələb edirlər ki, bu da hüquqi və iqtisadi baxımdan əsassız hesab olunur".

Orxan Balakişiyev sonda qeyd edib ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 44.1-ci maddəsinə əsasən, hər bir hüquqi şəxs yalnız öz öhdəliklərinə görə cavabdehdir və buna görə də başqa şirkətlərin səhmdarlarının "Baku International Tobacco" MMC-yə qarşı iddia qaldırması qanunla yolverilməzdir.

İddiada adı keçən "European Tobacco-Baku" ASC ilə əlaqə saxlamaq mümkün olmayıb.

Məlumat üçün bildirək ki, Dövlət Vergi Xidmətindən açıqlanan rəsmi məlumata görə, nizamnamə kapitalı 133 min 905 manat 66 qəpik olan "European Tobacco-Baku" ASC (VÖEN - 9900001341) 24 may 2004-cü ildə dövlət qeydiyyatına alınıb. ASC-nin qanuni təmsilçisi Qasımov Tural İsmayıl oğludur.

Nizamnamə kapitalı 15 milyon 187 min 130 manat olan "Baku International Tobacco" MMC (VÖEN - 1305045151) isə 12 iyun 2017-ci ildə dövlət qeydiyyatına alınıb. MMC-nin qanuni təmsilçisi Süleymanlı Azər Rauf oğludur.

Hər iki şirkət eyni hüquqi ünvanda - Bakı şəhəri, Nizami rayonu, Keşlə ŞTQ, 1-ci Köndələn, ev 21-də yerləşir.

Onu da qeyd edək ki, "European Tobacco-Baku" ASC rəsmi dövlət qeydiyyatına 2004-cü ildə alınsa da, sabiq millət vəkili Rüfət Quliyevin 1999-2017-ci illərdə bu şirkətə rəhbərlik etdiyi bildirilir.

İlk dəfə 2010-cu ildə 73 saylı Lənkəran seçki dairəsindən deputat mandatı qazanan Quliyev bundan sonra eyni dairədən iki dəfə də Milli Məclisə üzv seçilib. Açıq mənbələrdə onun iqtisad elmləri üzrə professor və yüzlərlə elmi məqalənin müəllifi olduğu görünür, lakin Rüfət müəllim mediada və ictimaiyyətdə biznesmen kimi tanınır, eyni zamanda ölkənin əsas siqaret inhisarçılarından biri kimi göstərilir.

***Sənan Mirzə***

# "Qarabağ Universitetinin məzunları magistratura imtahanlarını Xankəndidə verəcək" - DİM sədri



***Qarabağ Universitetinin məzunları iki ildən sonra magistratura imtahanlarını Xankəndidə verəcəklər.***

"Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə deyib.

Onun sözlərinə görə, gələcəkdə hamı Xankəndini universitet şəhərciyi kimi tanıyacaq:

"Bu il qəbul imtahanları ilk dəfə Xankəndidə keçiril. İndi növbəti mərhələyə ümidlə baxırıq. Qarabağ Universitetinin məzunları iki ildən sonra magistratura imtahanlarını Xankəndidə verəcəklər. Biz buna tam əminik".

# Arayik Harutyunyanın cinayətlərdə iştirakı sübutlarla təsdiqləndi



***Noyabrın 6-da Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilir.***

"Unikal" xəbər verir ki, məhkəmə iclasında təqsirləndirilən şəxslərin ayrı-ayrılıqda cinayətkar birliyin tərkibindəki rollarını təsdiq edən sənədlərin və sübutların elan olunmasına başlanılıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev sənədlərin və sübutların təqsirləndirilən şəxs Harutyunyan Arayik Vladimiri (Vladimiroviç) ilə bağlı olan hissəsini diqqətə çatdırıb. Bildirilib ki, təqsirləndirilən Arayik Harutyunyanın 1991-ci ilin dekabr ayında cinayətkar birliyə qoşulmaqla 20 sentyabr 2023-cü ilədək olan müddət ərzində cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları icra etməklə cinayətkar birlik tərəfindən törədilmiş bütün cinayətlərdə bilavasitə və dolayı yolla iştirak etməsi məhkəmə iclasında tədqiq olunmuş sübutlarla təsdiqlənib.

Diqqətə çatdırılıb ki, tədqiq edilmiş materiallardan birinə əsasən, Arayik Harutyunyanın 1990-cı illərdə Azərbaycana qarşı törədilən cinayətlərdə qardaşı ilə birlikdə iştirak etdiyi, habelə Kərkicahan qəsəbəsində, Xocalıda gedən döyüşlərə qatılması təsdiqini tapıb.

Qeyd edilənlər onun sıravi iştirakçı olmadığını, düşmən ordusunun döyüş qabiliyyətinin təmin edilməsində, silahlı dəstələrin fasiləsiz təchizatında və onların qanunsuz silahlı əməliyyatlar aparmaq imkanlarının saxlanılmasında birbaşa rol oynadığını sübut edir.

Qeyd olunub ki, məhkəmədə tədqiq edilmiş videomaterial təqsirləndirilən şəxsin təkcə Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələrinini işğalı altında olan ərazilərə səfər etmədiyini, həm də döyüş mövqelərinin yoxlanılması, oradakı qüvvələrin potensialının öyrənilməsi və hərbi əməliyyatların davamlılığının təmin olunmasına yönələn fəaliyyətlərdə bilavasitə iştirak etdiyini sübuta yetirir. Bu isə onun Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı aparılan silahlı təcavüzün informasiya, təşkilati və kadr təminatı istiqamətində mühüm rol oynadığını bir daha təsdiqləyir. Bildirilib ki, o, Azərbaycan xalqına, xüsusilə dinc əhaliyə qarşı çoxsaylı cinayətlərin, terror aktlarının törədilməsində iştirak etməklə yanaşı, qeyd edilən əməllərini sosial şəbəkələr vasitəsilə dünyaya çatdırmaqdan da çəkinməyib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:53 PM Page 5



# Prezident fərman imzaladı



***Azərbaycanda "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı" genişləndirilib.***

"Unikal" xəbər vemrir ki, bununla bağlı Prezident İlham Əliyev yeni fərman imzalayıb.

Fərmana əsasən, siyahıya Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin göstərdiyi bir sıra xidmətlər əlavə edilib. Belə ki, Agentlik standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikat, malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətin müvafiq standarta, texniki reqlamentlə və digər normativ hüquqi aktla müəyyən olunmuş tələblərə uyğunluğunu təsdiq edən uyğunluq sertifikatı və uyğunluğun təsdiqi barədə təsdiqedici sənədlərin verilməsi, eləcə də qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına dövlət əyar damğasının vurulması və malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi xidmətləri göstərəcək.

# Büdcə müzakirələri - 45 maddə üzrə 145 dəyişiklik ediləcək



***"Layihə 3 əsas blokdan ibarət olmaqla ümumilikdə 45 maddə üzrə 145 dəyişiklik təklifini əhatə edir. Layihənin əsas istiqamətləri investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi daxilolmalarının və büdcə gəlirlərinin səmərəli tənzimlənməsi, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və "kölgə iqtisadiyyatı" ilə mübarizənin gücləndirilməsindən ibarətdir".***

Bunu İqtisadiyyat nazirin müavini Anar Axundov Milli Məclisin bir neçə komitəsinin ortaq iclasında büdcə zərfinin müzakirəsi zamanı deyib.

"Dəyişikliklər iqtisadiyyatın bir sıra strateji sektorlarını - yerli avtomobil istehsalı, gəmiqayırma, neft-qaz sənayesi, dövlət-özəl tərəfdaşlığı, balıqçılıq, kənd təsərrüfatı, ictimai iaşə və əmək bazarını əhatə edir. Bu istiqamətlər üzrə vergi siyasətinin çevikləşdirilməsi və güzəşt mexanizmlərinin tətbiqi iqtisadi aktivliyi artırmaq, ixrac potensialını genişləndirmək və dövlət gəlirlərinin sabitliyini qorumaq məqsədi daşıyır".

# DOST Agentliyində yeni təyinat

***Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) İdarə Heyəti sədrinin müşaviri vəzifəsinə yeni təyinat olub.***



"Unikal" xəbər verir ki, bu vəzifə Tural Güləhmədova həvalə edilib.

Qeyd edək ki, Tural Güləhmədov 1981-ci ildə Sumqayıt şəhərində doğulub. Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq fakültəsinin bakalavr, Azərbaycan Dövlət İqtisad Universitetinin Dünya İqtisadiyyatı fakültəsinin magistratura pilləsini bitirib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İlham Əliyev NATO nümayəndə heyətini qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.***



"Unikal" xəbər verir ki, NATO nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasının əhəmiyyətini vurğulayan Türkiyənin alyansdakı daimi nümayəndəsi Basat Öztürk dövlətimizin başçısının NATO mənzil-qərargahına səfərlərini məmnunluqla xatırladı.

O, Azərbaycanın hazırkı inkişafının təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə daha da gücləndiyini vurğuladı.

Qonaqlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibəti ilə Prezident İlham Əliyevə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etdi və əldə olunmuş razılaşmaların regionun inkişafı üçün geniş imkanlar açdığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində NATO mənzil-qərargahına səfərlərini xatırladaraq qeyd etdi ki, Əfqanıstandakı əməliyyatlara dəstək Azərbaycan-NATO əməkdaşlığının vacib hissəsi olsa da, ölkəmizlə alyans arasında regional inkişaf, enerji təhlükəsizliyi və digər istiqamətlər üzrə əməkdaşlıq da gündəmdədir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğuladı. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxundu.

Prezident İlham Əliyev Azərbaycanın ötən əsrin əvvəllərində müstəqilliyini qazandıqdan bəri əsas məqsədimizə çatdığımızı - torpaqlarımızın işğaldan azad olunduğunu vurğulayaraq qeyd etdi ki, ordumuzun müasirləşdirilməsi prosesi bundan sonra da davam edəcək.

Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanın NATO-nun dəyərli tərəfdaşı olduğu vurğulandı, Silahlı Qüvvələrimizin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətləri, bu xüsusda ölkəmizin regional nəqliyyat və logistika mərkəzi kimi töhfələri yüksək qiymətləndirildi, sülhməramlılarımızın Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olduğu qeyd edildi.

Azərbaycanın alyans üzvləri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinə toxunuldu, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində ölkəmizin 1994-cü ildən alyansın proqramlarında fəal iştirak etdiyi bildirildi.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının perspektivləri müzakirə olundu, regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Media daha 3 il vergidən azad olunacaq

***Media subyektlərinin öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin gəlir (mənfəət) vergisindən azadolma müddəti artırılacaq.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirə olunan Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Sənədə əsasən, media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər (o cümlədən reklam gəlirləri), habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən maddi yardımlar 2029-cu il yanvarın 1-dək gəlir vergisindən azad ediləcək.

Həmçinin, media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi 2029-cu il yanvarın 1-dək ƏDV-dən azad ediləcək.



Məlumat üçün bildirək ki, mövcud qanunvericiliyə əsasən, sözügedən güzəştlər 2023-cü il yanvarın 1-dən tətbiq edilirdi və müddəti 2026-cı il yanvarın 1-də başa çatacaqdı.

# Hikmət Hacıyev Con Alderdays ilə görüşdü

***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 6-da Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi, Lordlar Palatasının üzvü Con Alderdays ilə görüşüb.***



"Unikal" xəbər verir ki, Hikmət Hacıyev bu barədə özünün "X" sosial media hesabında paylaşım edib.

"Bu gün Böyük Britaniyanın Azərbaycana və Mərkəzi Asiyaya ticarət üzrə elçisi Lord Alderdice ilə görüşməkdən məmnun oldum. Biz strateji tərəfdaşlıq ruhunda ikitərəfli ticarət, biznes və investisiya əlaqələrimizi daha da genişləndirmək, həmçinin süni intellekt, rəqəmsal transformasiya və əlaqəlilik sahəsində yaranan imkanlardan yararlanmaq yolları barədə səmərəli fikir mübadiləsi apardıq", - məlumatda qeyd olunub.

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:53 PM Page 6



# Möhtəşəm qələbənin 5-ci ildönümü: Zəfər paradı keçiriləcək

***2025-ci il noyabrın 8-də Azərbaycan xalqı ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası uğrunda uzun illər apardığı mübarizənin həlledici mərhələsinə yekun vurmuş Zəfər Gününü böyük milli qürur duyğusu ilə qeyd edəcək.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, noyabrın 8-də Bakı şəhərinin Azadlıq meydanında Zəfər Gününün beşinci ildönümü münasibətilə hərbi parad keçiriləcək. Parada hazırlıqla bağlı hərbçilərlə məşqlər keçirilib.

Hazırlıq məşqləri zamanı Bakı şəhərində və ətraf ərazilərdə aviasiya vasitələrinin uçuşları, avtomobil və döyüş texnikalarının müəyyən edilmiş marşrutlar üzrə hərəkəti və yerdəyişməsi icra olunub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərif də Zəfər paradında iştirak etmək üçün Bakıya gələcəklər. Ərdoğanla birlikdə Türkiyənin milli müdafiə naziri Yaşar Gülər və xarici işlər naziri Hakan Fidanın da paradda iştirak edənlər arasında olacağı gözlənilir.



Qeyd edək ki, paradda Azərbaycan Ordusunun şəxsi heyəti ilə yanaşı Türkiyə və Pakistan hərbçilərinin də iştirakı nəzərdə tutulub. Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 6 ədəd F-16 da Zəfər paradında uçuş edəcək.

Noyabrın 8-də saat 20:00-da Dənizkənarı Milli Parkda Saat qulləsinin yanında bayram konserti baş tutacaq. Bayram konsertində Azərbaycanın tanınmış incəsənət ustaları - müğənnilər, rəqs kollektivləri çıxış edəcək. Konsertin sonunda atəşfəşanlıq olacaq.

Noyabrın 6-da Bakı, Sumqayıt, Naxçıvan, Xankəndi, Şuşa və Laçın şəhərlərinin mərkəzi küçə, prospekt və meydanlarında hərbi orkestrlərin müşayiəti ilə yürüşlər təşkil olunub. Yürüşlərdən əvvəl Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Hərbi orkestrlərin vətənpərvərlik mahnılarını ifa etmələri, həmçinin marşların sədaları altında keçirilən yürüşlər vətəndaşlarımız tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

# "Bu şəxslər qanunu pozaraq sahibkarlıq və ya əmək faaliyyəti ilə məşğul olur" - Nazir

***"Qanunvericiliyə edilən son dəyişikliklər dövlətin öhdəliyini genişləndirir. Əvvəlki normada bəzi kateqoriyalar göstərilir, digərləri isə sığorta haqqını özü ödəməli olurdu. Amma bu ödənişlərin tətbiqi bəzi dövrlərdə dayandırılmış və ya dondurulmuşdu".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı maliyyə naziri Sahil Babayev deyib. Nazir bildirib ki, yeni dəyişikliklə dövlətin öhdəliyi əhəmiyyətli dərəcədə artırılıb:

"Əmək qabiliyyəti olmayan şəxslər, işsizlər, pensiyaçılar, əlilliyi olan şəxslər, uşaqlar, tələbələr və digər geniş əhali qrupları birbaşa dövlətin təminatında olur. Öz hesabına sığortalanan şəxslər isə - yəni rəsmi məşğul olan, əmək müqaviləsi ilə çalışanlar, sahibkarlar, kənd təsərrüfatı ilə məşğul olan ailə təsərrüfatları - qanunla müəyyən edilən qaydada öz haqlarını ödəyirlər. Yeganə istisna - qeyri-formal məşğul olan şəxslərdir. Bu nə deməkdir? Bu şəxslər qanunu pozaraq sahibkarlıq və ya əmək fəaliyyəti ilə məşğul olur, gəlirlərini gizlədir və qeydiyyatdan yayınırlar. Qanun bu şəxsləri məsuliyyət daşıyan kateqoriya kimi müəyyənləşdirir və onların sığortalanması yalnız öz vəsaitləri hesabına, birdəfəlik ödənişlə mümkündür.

Bəzən kimsə bunu hansısa formada işsiz şəxslərə də şamil etmək istəyirlər. Xeyr, qanun birbaşa göstərir ki, işsiz şəxslər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan, aktiv VÖEN-i olan şəxslər, qeydiyyata duran ailə fermer, kəndli təsərrüfatları da - yəni, rəsmi şəkildə fəaliyyət göstərən bütün şəxslər, habelə işsiz olan şəxlsərin vəsaiti dövlət tərəfindən təmin edilir. Yalnız



qanunu pozaraq gəlirini gizlədən şəxslərin sığortalanması özləri tərəfindən birdəfəlik haqq ödənilərək həyata keçirilir".

S.Babayev qeyd edib ki, bu yanaşmanın məqsədi isə uçotun aparılması və qeyri-formal məşğulluğun rəsmi formaya keçirilməsidir.

***Anar Kəlbiyev***

# "Tibb məntəqələrinin 43 faizi xidmətə yararsızdır" - Zaur Əliyev

***"Qeyri-formal məşğulluqda olan şəxslər, yəni sığorta sisteminə daxil olmayan şəxslər belə, ilkin səhiyyə xidməti və təcili tibbi yardım xidmətlərindən ödənişsiz şəkildə yararlana bilirlər. Yəni, hər hansı təcili tibbi yardım halında bu şəxslər xidmətlərdən məhrum qalmayacaqlar".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev deyib.

O bildirib ki, ilkin səhiyyə xidməti İTSDA üçün prioritet istiqamətlərdən biridir. Bu sahə nə qədər inkişaf edərsə, bir



o qədər preventiv tədbirlərin görülməsi mümkün olacaq və xəstəxanalara düşən yük azalacaq.

"Hazırda bu sahədə iki əsas problem var. Tibb müəssisələrinin fiziki vəziyyəti: Ölkədə təxminən 2500-dək tibb məntəqəsi mövcuddur, onların 43 %-i tam yararsız vəziyyətdədir. Bu, əsasən kənd yerlərindəki məntəqələrə aiddir. Hazırda kənd məntəqələrində xidmət göstərmək üçün azı 1500 həkimə ehtiyac var. Bu məsələ ilə bağlı Səhiyyə Nazirliyi ilə bir neçə görüşümüz olub və nazirlik tərəfindən bu çatışmazlığın aradan qaldırılması istiqamətində müəyyən təklif və həll yolları var".

Z.Əliyev qeyd edib ki, sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində 2027-2030-cu illərdə təmir mərhələli şəkildə həll olunacaq: "Pilot layihə olaraq isə Bərdə rayonu seçilib. Bərdə yeganə rayondur ki, hazırda bütün kəndlərdə həkim təminatı mövcuddur. Bu səbəbdən, ilin sonuna qədər bütün tibb məntəqələrinin yenidən qurulması planlaşdırılır".



# "Kadr çatışmazlığı ilə bağlı layihə hazırlanır" - Səhiyyə naziri

"Səhiyyə sahəsində kadr çatışmazlığı ilə bağlı Səhiyyə Nazirliyi, TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi birlikdə müzakirələr keçirib və layihə hazırlanıb. Təklifimiz Tibb Universitetinə və Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna yönəldilib".

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı səhiyyə naziri Teymur Musayev deyib.

Nazir bildirib ki, bu, baza təhsili almış və 1 il ərzində xüsusi təhsil almış ailə həkimləri ilə bağlıdır: "Bu, məsələnin akademik tərəfidir. Digər tərəfi isə onların sosial müavinətləridir. Yəni, onlar üçün regionlara getmək məsələsi cəlbedici olmalıdır. Bu məsələ ilə bağlı layihə hazırlanıb. Düşünürəm ki, növbəti 2 ildə ilkin səhiyyə xidmətlərində əsaslı dönüşü görəcəyik".

# Deputat təklif etdi - Rəis "yox" dedi

***Minimum əməkhaqqı alanların vergidən azad olunması təklif edilir.***

"Unikal" xəbər verir ki, bu barədə deputat Vüqar Bayramov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında Vergi Məcəlləsinə təklif olunan dəyişikliyin müzakirəsi zamanı bildirib.

O qeyd edib ki, dövlət sektorunda minimum əməkhaqqı alan vətəndaşlar üçün 200 manatlıq azadolma nəzərdə tutulsa da, özəl sektorda ümumiyyətlə, hər hansı azadolma təklif olunmur:

"Halbuki, əksər dövlətlərdə minimum əməkhaqqı gəlir vergisindən azaddır. Ona görə təklif edərdim ki, həm dövlət, həm də özəl sektorda minimum əməkhaqqı alan vətəndaşlarımızın maaşları vergidən azad olunsun. Hər iki sektorda vergidən azad olunan məbləğ 400 manat müəyyənləşdirilsin. Bu, minimum əməkhaqqı alan vətəndaşlarımızın sosial müdafiəsi baxımından vacibdir. Həmin vətəndaşların maaşları yüksək olmadığı üçün əməkhaqlarının vergiyə cəlb olunması arzuolunan deyil. Bu baxımdan, həm dövlət, həm də özəl sektorda minimum əməkhaqqı alan vətəndaşlarımızın maaşlarının vergidən azad olunmasını təklif edirəm".

Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli də vergidən azadolmanın 200 manatdan 400 manata qaldırılması məsələsinə münasibət bildirib: "Vergidən azadolmanın 200 manatdan 400 manata qaldırılması məsələsi qeyd olundu. O özəl sektorda qaldırılsa idi, sual yaranardı ki, niyə dövlət sektoruna tətbiq olunmur? Bu, daxildə müzakirə olunub, biz həmkarlarla müzakirə etmişik. Vergidən azadolmanın 200 manatdan 400 manata qaldırılmasının dövlət büdcə gəlirlərinə kifayət qədər təsiri var. Biz burada müəyyən balans tapmalıyıq", - DVX rəisi bildirib.



## General-mayor Bəkir Orucovla bağlı qərar verildi

***"Tərtər işi" ilə bağlı təqsirləndirilən general-mayor Bəkir Orucov və digər şəxslər barəsində olan hökmdən verilən kassasiya şikayəti təmin edilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə qərar Ali Məhkəmədə hakim İlqar Qılıcov sədrliyi ilə keçirilən prosesdə verilib.

Qərara əsasən, birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən Bəkir Orucov və digərləri ötən il cinayət məsuliyyətinə cəlb ediliblər.

Onlara qarşı Cinayət Məcəlləsinin 126.3 (qəsdən sağlamlığa ağır zərər vurma, ölümə səbəb olduqda), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə, ölümə səbəb olduqda), 293.2 (dövlət orqanının vəzifəli şəxsi tərəfindən işgəncə vermə), 329 (tabelikdə olan hərbi qulluqçuya qarşı zoraki hərəkətlər), 341.2.1 və 341.2.3 (bir qrup şəxs tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və ya vəzifə səlahiyyətlərini aşma bir qrup şəxs tərəfindən ağır nəticələrə səbəb olduqda) maddələri İntiqam Məmmədova isə əlavə olaraq 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə Bəkir Orucov 9 il 6 ay, Z.Kazımov və Ü.Rəşidov 9 il 6 ay, İ. Məmmədov və R.Məmmədov isə 6 il 6 ay azadlıqdan məhrum edilib.

Daha sonra Bakı Apellyasiya Məhkəməsininin qərarı ilə B. Orucovun cəzası 6 il 6 aya endirilib.

## Din xadiminə sui-qəsd hazırlamaqda ittiham olunanlar hakim qarşısında

***Din xadiminin həyatına sui-qəsd etməyə hazırlaşmaqda təqsirləndirilən Nərminə Şabanova, Elvin Əhmədov və Naib İsmiyevin barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Seyidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənlərin anket məlumatları dəqiqləşdirilib. Naib İsmiyevin vəkili vəsatət verərək işə yeni qoşulduğunu bildirib və işin ağırlığının nəzər alınaraq prosesin təxirə salınmasını xahiş edib.

Məhkəmə vəsatəti təmin edib. Növbəti proses 20 noyabr tarixinə təyin olunub.

Qeyd edək edək ki, təqsirləndirilən şəxslər DTX-nin keçirdiyi əməliyyat nəticəsində saxlanılıblar. Nərminə Şabanova və Naib İsmiyev AR Cinayət Məcəlləsinin 28 (cinayətə hazırlıq), 277-ci (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə) maddələri ilə, Elvin Əhmədov isə 228.2.1-ci (qanunsuz olaraq silah gəzdirmə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunurlar.

***Seymur Əli***

# "Zəfər paradı Azərbaycanın şanlı hərb tarixinin ən parlaq səhifəsidir"

## Ədalət Verdiyev: "Bu parad xalqımız üçün müstəsna əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan beş il əvvəl dünyaya 21-ci əsrin ilk qalib xalqı olduğunu nümayiş etdirib"

***Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr edilmiş Zəfər paradının əhəmiyyətindən, paradda hansı ölkələrdən aldığımız yeni texnikaların nümayiş etdiriləcəyindən, Pakistanın Baş nazirinin, Türkiyə Prezidentinin paradda iştirak etməsindən və gələn ilin dövlət büdcəsində müdafiə sahəsinə ayrılan vəsaitin artırılmasından danışıb.***

***-Ədalət müəllim, məlum olduğu kimi, noyabrın 8-də Bakıda Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr edilmiş Zəfər paradı keçiriləcək. Bu hərbi paradın əhəmiyyətini necə qiymətləndirirsiz?***

-Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr edilən Zəfər paradı Azərbaycanın şanlı hərb tarixinin ən parlaq səhifəsidir. Bu parad xalqımız üçün müstəsna əhəmiyyətə malikdir. Bu paradla Azərbaycan beş il əvvəl dünyaya 21-ci əsrin ilk qalib xalqı olduğunu nümayiş etdirib. Azərbaycanın Ermənistan üzərində tammiqyaslı qələbəsini özündə ehtiva edən Zəfər paradının 5 il əvvəl keçirilən Qələbə paradından müəyyən fərqləri vardır. İlk dəfə olaraq paytaxtda ərazi və sərhəd bütövlüyü, suverenliyi təmin olunmuş Azərbaycanın qələbə paradını görəcəyik. Bu qələbə sayəsində Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Ordumuz 30 illik işğal tarixinə malik Ermənistan silahlı birləşmələrini öz ərazisindən tamamilə təmizləyib və Azərbaycan ərazisində bir nəfər belə işğalçı ordunun nümayəndəsi yoxdur. Azərbaycan Ordusu Zəngəzur dağlarından Ermənistanın enini və uzununu müşahidə edir. Bunlar Vətən müharibəsində əldə etdiyimiz qələbə sayəsində mümkün olub. Haqq-ədalət qələbə çalıb, Azərbaycan son 80 ilin yeganə qalib dövləti olub və uzun illər bizi dərindən narahat edən Ermənistanın işğalçılıq siyasətinə son qoyulub. Ermənistan 21-ci əsrin fərari ordusuna malik ölkəsinə çevrilib.

***-Hər bir paradın diqqətçəkən məqamlarından biri hərbi texnikalardır. Bundan əvvəl keçirilən paradlarda nümayiş olunan texnikalarla yanaşı yeni hərbi texnikaların da nümayiş etdiriləcəyi gözlənilir. Bu paradda hansı ölkələrin istehsalı olan texnikaların nümayiş ediləcəyi gözlənilir?***

-Ali Baş Komandan İlham Əliyev daim Azərbaycan Silahlı Qüvvələrinin təminat və təchizatına xüsusi diqqət yetirib, təhlükəsizlik məsələlərinin prioritet olduğunu qeyd edib. İldən-ilə artan döyüş imkanlarımız bu diqqətin sayəsində mümkün olub. Zəfər paradında Azərbaycanın yeni əldə etdiyi bir çox silah sistemləri ilk dəfə ictimaiyyətə rəsmi olaraq təqdim ediləcək. Bunların arasında Pakistanın istehsalı olan qırıcıları, Serbiya istehsalı olan uzaqmənzilli özüyeriyən artilleriya sistemlərini, Çinin istehsal etdiyi müasir hava hücumundan müdafiə sistemini, eləcə də Belarus, Türkiyə və digər müttəfiq ölkələrin silah, texnika, vasitə və avadanlıqlarını müşahidə edəcəyik. Həmçinin, Azərbaycanın yerli istehsalı olan bəzi silahlar da bu paradda nümayiş etdirilə bilər. Paralel olaraq paradda dost və müttəfiq ölkələrin rəhbərləri, eləcə də həmin ölkələrin parad heyətlərinin iştirakı gözlənilir.

***-Siz də dost ölkələrin rəhbərlərini qeyd etdiniz. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan paradda iştirak edəcək. Qardaş ölkə rəhbərlərinin iştirak etdiyi bu parad sizcə hansı mesajlarla yadda qalacaq?***

-Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın paradda iştirakı bizim üçün mühüm əhəmiyyət daşıyır. Yəqin ki, paradın açılışında müdafiə naziri Zakir Həsənov hər üç dövlət rəhbərinə məruzə edəcək. Digər tərəfdən hər üç ölkənin himnləri səsləndiriləcək. Hər üç ölkədən gələn parad heyətləri, onlara aid silah və texnikalar bu paradda nümayiş etdiriləcək. Digər tərəfdən paradın açılış nitqində hər üç ölkə rəhbərinin Azərbaycan dövlətinə, xalqına təbrikləri səslənəcək. Bu paradda Ermənistana yönəlik müəyyən mesajlar ötürüləcək. Sülhün əldə olunmasına mane olan qüvvələrə ciddi xəbərdarlıq ediləcək.



***-Son olaraq gələn ilin büdcəsində müdafiə sahəsinə ayrılan vəsaitlə bağlı fikirlərinizi bilmək istərdim. Belə ki, 2026-cı ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8 714 800 000 manat vəsait yönəldiləcək. Bu, 2025-ci illə müqayisədə 318 500 000 manat və ya 3,8 %, 2024- cü ilin icrası ilə müqayisədə isə 2 152 600 000 manat və ya 32,8 % çoxdur. Bu artımları nəzərə alaraq növbəti ildə də yeni silah və texnikaların alınması nəzərdə tutula bilərmi?***

-Azərbaycan hər il ardıcıl olaraq müdafiə və təhlükəsizlik xərclərini artırır. Regionun lider dövlətindən orta güc dövlətinə çevrilmişik. Dünyada baş verən bir çox problemlərin həllində Azərbaycan kifayət qədər aktiv rol oynayır. Buna görə də xərcləri artırmaqla müharibəyə hazırlaşmırıq. Əksinə, bizə qarşı revanş barədə düşünən qüvvələri pis niyyətlərindən çəkindirmək üçün daim hərbi potensialımızı inkişaf etdiririk. Silahların, texnikaların, vasitələrin, avadanlıqların alınması Azərbaycan üçün daim aktual mövzudur. Bu proses fasiləsiz olaraq davam edir. Bizim üçün zəruri olan silah sistemlərinin alınması, eləcə də mövcud olan döyüş vasitələrinin yenilənməsi, müasirləşdirilməsi, modernləşdirilməsi bundan sonra da aktiv şəkildə davam edəcək.

***Anar Kəlbiyev***

# AzTV-dəki 26 milyonluq müəmmalı məsələ böyüyür

## Baş prokurorluq dövlət televiziyasında araşdırmaya başlayacaq?

***Xəbər verildiyi kimi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC (AzTV) üzrə dövlət vəsaitlərinin və digər əmlakın idarə olunmasının auditinin nəticələri açıqlanıb. Bu, “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi”ndə əksini tapıb.***

Qeyd edilib ki, audit nəticəsində “AzTV” QSC tərəfindən əmək müqaviləsi əsasında fəaliyyət göstərən işçilərə əmək funksiyalarının icrası ilə bağlı əməkhaqqı formasında ödənilməli vəsaitlərin qonorar adı ilə rəsmiləşdirilməsinə və ödənilməsinə (ümumilikdə, 26,0 mln. manat, o cümlədən 2023-cü ildə 11,3 mln. manat, 2024-cü ildə 11,6 mln. manat, 2025-ci ilin 1-ci rübündə 3,1 mln. manat) yol verildiyi müəyyən edilib. Bu, əmək münasibətlərinin mülki-hüquq münasibətləri kimi yanlış təsnif edilərək Əmək Məcəlləsi və Vergi Məcəlləsinin şərtləri ilə uyğunsuzluqlara səbəb olub, nəticə etibarilə məcburi sosial ayırmaların tam həcmdə tutulmaması işçilərin sosial təminat hüquqlarının məhdudlaşdırılması ilə səciyyələnib.

Xatırlatmaq yerinə düşər ki, dövlət televiziyasında qonorarların verilməsi bir müddətdir müzakirə mövzusudur. Həmin müzakirələrdə vurğulanır ki, qonorar sistemi maliyyə vəsaitləri üzərində manipulyasiya imkanı, məsələn, rəhbərliyin müəyyənləşdirdiyi şəxslərin adına yüksək məbləğdə ödənişlər rəsmiləşdirmək, subyektiv qiymətləndirmələr aparmaq, misal üçün, bənzər yaradıcı fəaliyyətlər müqabilində kiməsə az, kiməsə çox ödəniş etmək fürsəti yaradır. Bu da istər-istəməz maliyyə intizamının pozulmasına gətirib çıxarır. Elə Hesablama Palatasının ortaya çıxardığı 26 milyon manatlıq nöqsana bir az da bu pəncərədən baxmaq lazımdır.

Digər tərəfdən həmin 26 milyonluq nöqsanda diqqət çəkən başqa məqamlar da var. Məsələ burasındadır ki, adıçəkilən QSC-nin Maliyyə Departamentinin rəisi Aysel Əsədzadə Az.TV sədrinin köməkçisi olan Həmidağa Əsədzadənin həyat yoldaşıdır. Üstəlik, düşündürücü məqam odur ki, H.Əsədzadə həm də Müəllif Proqramları Departamentinin rəhbəridir. Müəllif proqramlarının isə yüksək məbləğli və mübahisəli qonorarlar ödəməyə imkan yaratdığını təxmin etmək çətin deyil. Ən əsası, bu vəziyyətdə və yuxarıda adları çəkilən özünə yaxın şəxslər fonunda Az.TV rəhbəri Rövşən Məmmədovun Hesablama Palatasının aşkarladığı 26 milyonluq nöqsan barədə əvvəlcədən məlumatlı olub-olmadığına dair sual yaranır.

Yeri gəlmişkən, Rövşən Məmmədov 2019-cu ilin yanvarında Az.TV sədri təyin edildikdən bir ay sonra Prezident “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalamışdı. Sərəncama əsasən, maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir avadanlıqla təchiz olunması üçün “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan 3 milyon manat ayrılmışdı. Sonradan - icra zamanı həmin vəsaitin də bir hissəsinin təyinatının dəyişdirildiyi məlum olub. Belə ki, Hesablama Palatasının əvvəlki illərdə həyata keçirdiyi auditlərdən birində 2 halda 202 min 425 manatın digər məqsədlərə (179 min 800 manat müxtəlif dekorasiyaların alınmasına, 22 min 625 manat səyyar çəkilişlər zamanı avadanlıqların istifadə edilməsinə) xərcləndiyi müəyyənləşdirilib. Bir sözlə, Az.TV-də maliyyə intizamı baxımından görülməli çox iş var. Hərçənd bu, yeni xəbər deyil. Belə ki, hələ 2021-ci ilin noyabrında Hesablama Palatasının sədri Vüqar Gülməmmədov “Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri” QSC-də audit aparıldığını və bəzi maliyyə pozuntuları aşkarlandığını demişdi: “Bununla bağlı məsələ Hesablama Palatası Kollegiyasında müzakirə olunub, müvafiq Kollegiya qərarında AzTV rəhbərliyinə bəzi tədbirlərin həyata keçirilməsi tövsiyə olunub, bəziləri haqqında ciddi qərar qəbul edilib... Maliyyə hesabatlarında bəzi gəlir və xərclərin təhrif edilməsi nəzərə alınaraq, o hesabatlara yenidən baxılması tövsiyə olunub. Televiziya işçilərinin əməkhaqqı və qonorar sistemi ilə bağlı yol verilmiş bəzi pozuntuların dövlət büdcəsinə bərpası, ümumiyyətlə, əməkhaqqı və qonorar sistemini tənzimləyən yeni sənədin hazırlanmasını tövsiyə etmişik. Bununla yanaşı, QSC-nin gəlirlərinin, xüsusən reklamdan əldə olunan gəlirlərin şəffaflaşması ilə bağlı tədbirlərin görülməsini də Kollegiya qərarında göstərmişik...”.

Məsələ bununla da bitmir. Hesablama Palatasının sədri 2024-cü ilin aprelində Az.TV-dəki maliyyə nöqsanları məsələsinə yenidən qayıtmalı olub. V.Gülməmmədov rəhbərlik etdiyi qurumun 2023-cü ilə dair hesabat tədbirində çıxışı zamanı deyib ki, aparılan audit tədbirləri nəticəsində AzTV-də yenə də bir sıra nöqsanlar ortaya çıxıb. Sitat: “Bir podratçı tərəfindən eyni layihənin iki dəfə fərqli şəxslərə təqdim edildiyi aşkar olunub. Sırf bu məsələ araşdırılması üçün hüquq-mühafizə orqanlarına təqdim edilib. Məsələ aydınlaşıb və köçürülən vəsait dövlət büdcəsinə geri qaytarılıb”.




Göründüyü kimi, R.Məmmədovun Az.TV-yə sədr təyinatından - 2019-cu ildən bəri Hesablama Palatası mütəmadi şəkildə “Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri” QSC-də yoxlamalar aparır, ciddi nöqsanlar aşkarlayır, xəbərdarlıqlar və tövsiyələr edir, lakin ortada hələ də ciddi bir dəyişiklik yoxdur.

Onu da deyək ki, ötən ilin iyulunda Baş Prokurorluqda onlayn formatda keçirilən geniş kollegiya iclasında Baş prokuror Kamran Əliyev bildirmişdi ki, cinayətkarlığa qarşı aparılmış mübarizə sahəsində media nümayəndələrinin göstərdiyi cəhdlər, sərf etdikləri əmək xüsusi qeyd olunmalıdır. Sitat: “Müxtəlif hüquqpozmalar barədə mətbuatda yayılan məlumatlar əsasında prokurorluq orqanları tərəfindən 8 araşdırma aparılıb və onlardan 4-ü üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işi, 1-i üzrə isə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə inzibati xətalar haqqında iş üzrə icraat başlanıb”.

Baş prokurorun bu sözlərini xatırlamağımız təsadüfi deyil. Belə ki, Hesablama Palatasının “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-də üzə çıxardığı maliyyə nöqsanlarının ardından mərkəzi KİV-də bu qurumdakı qüsurlarla bağlı əlavə xəbərlər, iddialar yer alıb. Belədə isə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin həmin xəbərlərlə, iddialarla bağlı da araşdırmaya başlayıb-başlamayacağı ictimaiyyətdə maraq doğurur.

***Elvin Rüstəmov***



## Ekologiya Nazirliyinin büdcəsi azaldıldı

***”Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanında dəyişiklik edilib.***

“Unikal” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb.

Fərmana əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin büdcədəki xərcləri 1 384 537 manatdan 563 681 manata endirilib, əvəzində Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakultura Mərkəzinin büdcədəki əsas xərcləri 820 856 manat müəyyən edilib.

Bundan başqa, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin büdcədəki xərcləri 16 850 726 manatdan 16 568 470 manata endirilib, Balıqçılıq və Akvakultura Mərkəzinin büdcədəki əlavə xərcləri 282 256 manat müəyyən olunub.

## Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması qaydası dəyişib

***Prezident İlham Əliyev 31 may 2018-ci il tarixli fərmanı ilə təsdiq edilmiş ”İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası”nda dəyişiklik edib.***

”Unikal” xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb.

Fərmana əsasən, Agentliyin sərbəst maliyyə vəsaitinin maliyyə alətlərinə investisiya edilməsini, Agentliyin İdarə Heyətinin qərarına əsasən, yalnız ”Qiymətli kağızlar bazarı haqqında” qanunda nəzərdə tutulmuş lisenziyalaşdırılan şəxs həyata keçirir. Onunla ”Dövlət satınalmaları haqqında” qanuna uyğun olaraq satınalma müqaviləsinin bağlanılması tələbi ləğv edilib.

## Bu dövlət qurumu ləğv edildi

***Naxçıvan Muxtar Respublikasında daha bir dövlət qurumu ləğv edilib.***

Muxtar Respublikanın Dövlət Energetika Xidməti ləğv olunub.

Qeyd edək ki, qurum 2017-ci ildə Naxçıvan Ali Məclisinin sabiq rəhbəri Vasif Talıbov tərəfindən yaradılmışdı. Əsas vəzifəsi elektrik enerjisi istehsalı, ötürülməsi, elektrik enerjisi təchizatı və realizə edilməsi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirmək idi.

Xatırladaq ki, Prezident İlham Əliyevin ötən il imzaladığı sərəncama əsasən Naxçıvanda elektrik enerjisi təchizatını “Azərişıq” həyata keçirəcək.

42_27 IYUI-QARA.qxd 11/6/2025 8:56 PM Page 9





## Yanvar ayından 1,1 milyon nəfərin pensiyası 10 faiz artacaq

***2026-cı ilin yanvar ayından etibarən 1,1 milyon nəfəri əhatə edən bütün növ əmək pensiyaları təxminən 10 faiz artacaq.***

"Unikal"ın məlumatına görə, bunu iqtisadçı Eldəniz Əmirov bildirib. O qeyd edib ki, artım səviyyəsi orta aylıq nominal əməkhaqqının əvvəlki ilin müvafiq dövrünə nisbətən artımına görə baş verir.

"Hazırda isə orta aylıq nominal əməkhaqqı 9,7 faiz artaraq 1093 manata çatıb. DSMF-nun yeni büdcəsi də bunu təsdiq edir. Belə ki, fondun gələn il üçün gəlirləri 8,32 mlrd manat, xərcləri isə 8,48 mlrd manat proqnozlaşdırılır. Əhaliyə ödənişlərin həcmi isə bu illə müqayisədə gələn il 787,5 milyon manat çox olacaq. Bu isə 10,63 faiz artım deməkdir", - ekspert vurğulayıb.

Minimum pensiya 320 manat, yaşayış minimumu və ehtiyac meyarı isə 300 manat olacaq.

"Məlumat üçün deyim ki, yaşayış minimumu minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır. Bu göstəricini hazırlanmasının əsas məqsədi aztəminatlı ailələrə dövlət sosial yardımının göstərilməsi, fiziki şəxslərin gəlirlərinin vergiyə cəlb olunmayan həddinin müəyyənləşdirilməsi və dövlət büdcəsi ilə sosial siyasətin planlaşdırılmasıdır.

Qeyri-neft və qeyri-dövlət sektoru üçün gəlir vergisi 2026-cı ildə 3 faiz, 2027-ci ildə 5 faiz, 2028-ci ildə isə 7 faiz olacaq və bu sektorda 2500 manata qədər olan hissə 7 faizlə davam edəcək. 8000 manata qədər 10 faiz, 8000 manatdan yuxarı isə 14 faiz olaraq müəyyən olunacaq. Amma gələn il üçün bu dərəcə 3 faizdir.

Gələn il yanvarın 1-dən hibrid və elektrik mühərrikli avtomobillərin idxalı və satışına tətbiq edilən ƏDV güzəşti bitir.

Minimum əmək haqqı isə artırılmayacaq. Əslində bu heç gözlənilmirdi də. Çünki, adətən minimum əmək haqqı 2 ildən bir artırılır. Odur ki, bu artımı 2027-ci ilin 1 yanvarından 450-460 manata yüksəldiləcəyini ehtimal etmək olar", - Eldəniz Əmirov vurğulayıb.

## Sevinc Həsənovaya şiddətli töhmət verildi



***Mərkəzi Aran Regional Təhsil İdarəsi Mingəçevir şəhər Təhsil Sektorunun müdiri Sevinc Həsənovanın fəaliyyətində ciddi nöqsanlar aşkar edib. Aparılan araşdırmaların nəticəsində onun işində bir sıra idarəetmə və nizam-intizam qaydalarının pozulduğu müəyyənləşdirilib.***

"Unikal" xəbər verir ki, məhz bu səbəbdən, Mərkəzi Aran Regional Təhsil İdarəsi tərəfindən Sevinc Həsənovaya Əmək Məcəlləsinin 186-cı maddəsinə əsasən "şiddətli töhmət" intizam tənbehi tətbiq olunub.

Qeyd edək ki, bu qərar son dövrlər təhsil sahəsində nizam-intizamın gücləndirilməsi istiqamətində atılan tədbirlər fonunda verilmiş ən sərt inzibati addımlardan biri kimi qiymətləndirilir.

İdarə rəhbərliyinin sözlərinə görə, təhsil sektorunda vəzifə səlahiyyətlərinin sui-istifadəsi və vəzifə məsuliyyətinə laqeyd yanaşma halları yolverilməz hesab edilir.

# Elman Rüstəmovun şirkətləri bağlanır

## Sabiq baş bankirin biznesi ətrafında nə baş verir? - İlginc təfərrüatlar



***Azərbaycanda kənd təsərrüfatı sahəsində eyni şəxsə məxsus iki şirkətin ləğvi diqqət çəkib. Belə ki, həm "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC, həm də "Qarabağ Taxıl Aqro" MMC rəsmi olaraq ləğv olunduqlarını elan ediblər.***

"Oxu.az" rəsmi mənbələrə istinadən xəbər verir ki, "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC 14.03.2005-ci ildə dövlət qeydiyyatına alınıb və 9 050 010 manat nizamnamə kapitalına malik olub. Hüquqi ünvanı Beyləqan rayonu, Örənqala kəndi göstərilib.

Eyni prosedur çərçivəsində "Qarabağ Taxıl Aqro" MMC də ləğv olunub. Bu şirkət 10 iyul 2015-ci ildə dövlət qeydiyyatına alınıb və nizamnamə kapitalı 6 371 963 manatdır. Hüquqi ünvanı isə Şabran rayonunun Dəmir Yolunun Alt Tərəfi ərazisində yerləşir. Hər iki şirkətin qanuni təmsilçisi Cavid Abdullayevdir.

Mediada açıqlanan və təkzib olunmayan məlumatlara görə, ləğv olunan hər iki şirkətin təsisçisi "Səba" ASC və ya ASC-nin sahibi olan şəxsdir. "Səba" ASC 1997-ci ildə dövlət qeydiyyatına alınıb. Bir neçə ay öncə KİV-də yer alan məlumatlarda "Səba"nın dövlət qarşısında külli miqdarda vergi borcunun yarandığı və yarım milyon manata yaxınlaşdığı (448 754,46 manat) qeyd edilib.

Hazırda isə vergi reyestrində "Səba" ASC ilə bağlı məlumat yoxdur, bu da o deməkdir ki, şirkət ləğv olunub.

Şirkətin səhmdarları arasında Hidayət və Natiq Quliyev qardaşları olublar. Quliyev qardaşları həm də "Bank Respublika" ASC-nin sahibidirlər.

Bir müddət əvvəl "Səba" ASC-nin aktivlərinin "Chicken Pro." MMC tərəfindən alındığı xəbəri yayılıb. İddialara görə, "Chicken Pro." MMC də Quliyev qardaşlarına məxsusdur.

Bu ilin yayında isə külli miqdarda vergi borcu ilə üzləşmiş "Səba"nın təsis etdiyi "Qarabağ Taxıl" MMC-nin nizamnamə kapitalının kəskin şəkildə azaldıldığına dair xəbər yayılmışdı. Vurğulanırdı ki, şirkətin nizamnamə kapitalı 6 371 963 manat azaldılaraq 8 972 387 müəyyən edilib. Həmçinin, cəmiyyətin debitor və kreditorları bu barədə xəbərdar edilib və qanunla kreditorların nizamnamə kapitalı azalan hüquqi şəxsin öhdəliklərinin xitam verilməsini və vaxtından əvvəl icra olunmasını və zərərin əvəzinin ödənilməsini tələb etmək hüquqlarının olması bildirilib. Daha əvvəl isə "Qarabağ Taxıl"ın mülkiyyətində olan əmlakların və hüquqların satılması barədə qərar qəbul olunub.

Diqqət çəkən nüans ondan ibarətdir ki, yuxarıda adları çəkilən Quliyev qardaşları Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyətinin sabiq sədri Elman Rüstəmovun biznesinin idarəçiləri sayılır. Bu biznesə bəzi bank (Respublika Bank) və şirkətlərlə yanaşı, maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair daxildir. Elə ləğv edilən iki şirkət də AMB-nin sabiq rəhbərinə aid edilir.

Xatırladaq ki, hələ ötən il Elman müəllimin maliyyə problemi yaşadığı və bu səbəbdən də Qax rayonundakı əmlaklarını satışa çıxardığı barədə xəbər yayılmışdı. Həmin vaxt "AzPolitika"ya adıçəkilən rayondan daxil olan məlumatda bildirilirdi ki, keçmiş baş bankirə məxsus iri torpaq sahələri, villalar, obyektlər satışa qoyulub.

O da vurğulanırdı ki, qeyri-rəsmi şəkildə E.Rüstəmova məxsus şirkətlərin külli miqdarda vergi borcu onu çıxılmaz vəziyyətdə qoyub və həmin vəziyyətdən çıxmaq üçün müxtəlif yollara baş vursa da, sabiq baş bankirin uzun müddətdir bu istiqamətdə bütün cəhdləri nəticəsiz qalmaqdadır.

Rüstəmovun maliyyə çətinliyi yaşadığına dair bir ildir davam edən xəbərlər fonunda qeyri-rəsmi şəkildə ona məxsus olduğu barədə iddiaların irəli sürüldüyü "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC və "Qarabağ Taxıl Aqro" MMC-nin rəsmi şəkildə ləğv olunduqlarını elan etməsi maraq doğurur. Belə çıxır ki, Mərkəzi Bankın rəhbəri postundan uzaqlaşdırılmasının ardınca onun biznes imperiyasında işlər hələ də yolunda getmir. Bu prosesin haracan davam edəcəyini və nə ilə nəticələnəcəyini isə zaman göstərəcək.

Xatırladaq ki, E.Rüstəmov 1992-ci ilin dekabrında Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. 1993-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi alıb. 1995-ci ilin yanvarında Prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. Bundan sonra o, hər 5 ildən bir Milli Bankın İdarə Heyətinin sədri vəzifəsinə yenidən təyinat alıb.

Sonuncu belə təyinat 2020-ci ildə gerçəkləşib. Lakin 2 il sonra Rüstəmov baş bankir postu ilə vaxtından xeyli əvvəl vidalaşmalı olub. Düzdür, Mərkəzi Bankın rəhbəri postunu itirdikdən bir müddət sonra Baş nazir Əli Əsədov 13 aprel 2022-ci il tarixli sərəncamı ilə onu özünə müşavir təyin edib, lakin unudulmamalıdır ki, həmin vəzifə Elman müəllimin əvvəlki vəzifəsi ilə müqayisədə xeyli simvolik xarakter daşıyıb, ən əsası isə keçmiş baş bankirin biznesini çətinliklərdən qurtarmağa kifayət etməyb.

***Toğrul Əliyev***

42_27 IYUI-QARA.qxd 11/6/2025 8:56 PM Page 10



# İcra başçıları ilə monopolistlərin daha bir soyğunu

## Dünyada bahalaşanda Azərbaycanda da bahalaşır, bəs dünyada ucuzlaşanda Azərbaycanda niyə ucuzlaşmır? - Bir qiymət artımının ilginc pərdəarxası!

***Azərbaycanda kərə yağı bahalaşmaqda davam edir. Belə ki, son bir ildə xaricdən idxal edilən kərə yağında ortalama 3 manatdan çox bahalaşma var. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarının təhlili göstərir ki, son bir ildə ölkəyə gətirilən kərə yağının dəyərində yüksəlmə, həcmində isə azalma var.***

Bu ilin ilk 8 ayı ərzində Azərbaycana xarici ölkələrdən 98 milyon 703,2 min dollar dəyərində 13 min 625,6 ton kərə yağı idxal olunub. Bir müddət əvvəl "Yeni avaz" açıqlanan rəsmi məlumatlara istinadən xəbər vermişdi ki, xaricdən gətirilən kərə yağının bir kiloqramının orta gömrük dəyəri 7,2 dollar (12,2 manat) olub.



Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə idxal olunan kərə yağının bir kiloqramının orta gömrük dəyəri 5,3 dollar (9 manat) təşkil edib.

Açıqlanan rəqəmlərdən də göründüyü kimi, idxal olunan kərə yağının gömrük dəyəri son bir ildə 35,5% bahalaşıb.

Onu da bildirək ki, bu ilin ilk 8 ayında Azərbaycan 18 ölkədən kərə yağı idxal edib.

Ən çox kərə yağı İrandan (5 372,9 ton), ən az isə İspaniya və Lüksemburqdan (hər birindən 0,01 ton) gətirilib.

Ən baha kərə yağı Lüksemburqdan (bir kiloqramı 117,3 manat), ən ucuz isə Hindistandan (9,8 manat) idxal edilib.

Ötən ildən fərqli olaraq, bu il Azərbaycana Səudiyyə Ərəbistanından da böyük miqdarda - 1 011,4 ton kərə yağı gətirilib.

Bu ilin ilk 8 ayında Azərbaycan aşağıdakı ölkələrdən kərə yağı idxal edib:

İran - 5 372,89 ton (bir kiloqramının orta gömrük dəyəri 10,5 manat)
Türkiyə - 161,62 ton (13,1 manat)
Yeni Zelandiya - 3 205,55 ton (13,1 manat)
Ukrayna - 1 078,7 ton (12,6 manat)
Səudiyyə Ərəbistanı - 1 011,42 ton (14,5 manat)
Belarus - 924,55 ton (12,9 manat)
Finlandiya - 749,51 ton (16 manat)
Hindistan - 429 ton (9,8 manat)
Fransa - 259,68 ton (16,6 manat)
Almaniya - 236,89 ton (16,4 manat)
Belçika - 82,5 ton (15,2 manat)
Litva - 55,12 ton (15,4 manat)
Türkmənistan - 20 ton (9,9 manat)
İtaliya - 17,46 ton (20,6 manat)
Polşa - 14,95 ton (15 manat)
Rusiya - 5,07 ton (17,9 manat)
Portuqaliya - 0,64 ton (38,3 manat)
İspaniya - 0,01 ton (11,9 manat)
Lüksemburq - 0,01 ton (17,3 manat)

Bu ölkələrin kərə yağları hazırda Azərbaycan bazarlarında ən az 6-7 manat baha satılmaqdadır.

Ekspertlər isə sözügedən qiymət artımında bir neçə məqama diqqət çəkirlər. Məsələn, iqtisadçı ekspert Natiq Cəfərli yerli KİV-ə açıqlamasında demişdi ki, ölkədə otlaq sahələrinin və mal-qaranın artması prioritet elan edilsə də, əks-effekt verdi. Son illərin müşahidəsi göstərir ki, Azərbaycanda mal-qaranın sayında ciddi azalma var. Hətta Kənd Təsərrüfatı Nazirliyi də bu barədə açıqlama verdi və təəssüf ki, həmin azalmanı əhalinin daha çox ət yeməsi ilə əlaqələndirdi. Halbuki əsas səbəb kənd təsərrüfatında maldarlıqla məşğul olanların təşviq proqramlarının zəifliyi, yemin bahalaşması, otlaq sahələrinin az olması və yaxud da yem üçün nəzərdə tutulan otlaqlarda texniki bitkilərin əkilməsidir. Nəticə etibarilə Azərbaycanda son illər mal-qaranın sayı nəzərəçarpacaq dərəcədə azalıb. Sitat: "Azərbaycanda yerli istehsal adı altında şirkətlərə məxsus yağların bolluğunu görürük, lakin onların heç biri yerli istehsal deyil. Sadəcə, ölkəmizdə qablaşdırılır. Çox zaman bu yağlara qatqılar qatmaqla tərkibi ilə oynayırlar. Bu da bazara çıxarılan yağların keyfiyyətində problemlər yaradır, tərkibi 100 faiz kərə yağından ibarət olmur. Qiymətlə bağlı hökumətin əlində işlək mexanizm var, təəssüf ki, ondan istifadə etmirlər. Məsələn, yerli istehsalın zəif olduğunu nəzərə alaraq, kərə yağının gömrük rüsumlarını azaltmaq, hətta sıfırlamaq da olar. Beləliklə, vergi və gömrük rüsumlarını azaltmaqla bazarda satılan məhsulların qiymətinə müsbət təsir etmək mümkündür".

Başqa bir ekspert - Vahid Məhərrəmli isə bildirmişdi ki, Azərbaycan üçün çıxış yolu intensiv heyvandarlığa keçməkdir: "Məsələn, İsraildə bir inəkdən ildə 13 ton süd əldə olunur. Azərbaycanda isə bu göstərici orta hesabla 1,7 ton təşkil edir. Yəni İsrail inəkləri bizim inəklərdən 8-9 dəfə çox süd verir. Əgər biz keyfiyyətli yem istehsalını artırsaq, məhsuldarlığı yüksəltsək, intensiv heyvandarlığa keçsək, daxili istehsal real olar və kərə yağı daha əlçatan qiymətə bazara çıxarıla bilər".

Ekspert əlavə etmişdi ki, əks halda, Azərbaycan yaxın gələcəkdə tamamilə xarici asılılıqda qalacaq. Sitat: "İdxal olunan ətin, südün, kərə yağının və pendirin həcmi daha da artacaq. Bu səbəbdən hökumət strateji olaraq heyvandarlığı inkişaf etdirməli, məhsuldarlığı artırmalı və daxili bazarı qorumağa çalışmalıdır".

Bəzi mütəxəssislər isə Azərbaycanda kərə yağının son bir ildə xeyli bahalaşmasında subyektiv amilə də diqqət çəkirlər. Söhbət idxalda monopoliyadan gedir. Məsələn, iqtisadçı Akif Nəsirlinin sözlərinə görə, yağları idxal edən və pərakəndə satan subyektlər qiymətlərin aşağı salınmasına imkan vermirlər. Həmin subyektlər bazarda inhisarçı mövqeyə malikdilər. Həm yağın idxalı ilə məşğul olanlar, həm də pərakəndə satışı həyata keçirən sahibkarlar faktiki monopoliya yaradıblar. Sitat: "Deməyim odur ki, çox az sayda sahibkar ölkəyə yağ idxal edir və o da bəlli marketlərdə satılır. Bəlli marketlər də, bəlli idxalçılar da inhisarçıdır. Yağ idxalçılarının sayı az olduğuna görə, onlar sindikat razılaşmaya gedirlər və qiymətin aşağı düşməsinə imkan vermirlər".

Mütəxəssislər onu da vurğulayırlar ki, inhisarçılıq səbəbindən anormal vəziyyət yaranıb: dünya bazarlarında hər hansı məhsul bahalaşanda Azərbaycanda da, üstəlik, daha çox bahalaşır, lakin həmin məhsul yenidən ucuzlaşanda eyni hal bizdə baş vermir. Bir sözlə, qazanan həmişə və hər vəziyyətdə monopolistlər, cibi soyulan isə vətəndaşlar olur.

Qeyd edək ki, Azərbaycanın kənd təsərrüfatı rayonlarında otlaq sahələrinin məmurlar, ələlxüsus da icra başçıları tərəfindən zəbt edilməsi, yaxud satılması, eləcə də əksər hallarda təyinatdan kənar istifadəsi ölkədə heyvandarlığa vurulan ağır zərbə və ətin, kərə yağının bahalaşmasında ciddi faktor sayılır.

Bir sözlə, haqqında danışdığımız bahalaşmada əksər hallarda olduğu kimi yenə də gizli bir tandemin - məmur və monopolist maraqlarının izi görünür.

***Sənan Mirzə***



# İnam Kərimov Naxçıvan Ali Məhkəməsinin sədrini təqaüdə göndərdi

***2025-ci ilin noyabrın 5-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmə-hüquq sahəsində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

İclasda "İlk dəfə 3 il müddətinə təyin olunan hakimlərin təlimə cəlb edilməsi Qaydaları" layihəsi və "Azərbaycan Respublikası apellyasiya, ağır cinayətlər, hərbi, inzibati və kommersiya məhkəmələrinin ərazi yurisdiksiyası"nda dəyişiklik edilməsi barədə qərar layihəsi təsdiq edilib.

Daha sonra cari məsələlərə, o cümlədən hakimlər haqqında intizam icraatlarına baxılıb.

İclasda bəzi birinci və apellyasiya instansiya məhkəmələrinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşinin hakimlik səlahiyyətlərinin həyata keçirilməsi üçün son yaş həddinə çatması ilə əlaqədar səlahiyyətlərinə xitam verilməsi və onların səmərəli fəaliyyətinə görə Məhkəmə-Hüquq Şurasının fəxri döş nişanı ilə təltif edilmələri barədə qərarlar qəbul edilib.

# "Azərbaycan vasitəsilə Ermənistana növbəti yük göndəriləcək" - ADY

***"Cənab Prezident İlham Əliyevin oktyabrın 21-də Qazaxıstanda dövlət səfərində olarkən bəyan etdiyi kimi, Azərbaycan Ermənistana yüklərin tranziti ilə bağlı işğaldan bəri mövcud olan məhdudiyyətləri aradan qaldırıb".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) Kommunikasiya departamentinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Hacıyev deyib.

"Artıq yüklər Azərbaycandan tranzit keçməklə Ermənistana göndərilir. Rusiyadan Azərbaycan ərazisindən tranzit keçməklə 1048 ton 800 kq taxıl yüklü 15 vaqon ötən gün Böyük Kəsik stansiyasından Ermənistana göndərildi. Yüklər Gürcüstana, oradan isə Ermənistana daşınır.

Həmçinin Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınmasına başlanılıb. Qazaxıstandan göndərilən min tona yaxın taxıl yüklü 15 vaqon noyabrın 5-də Azərbaycana daxil olub. Qatar artıq Biləcəri stansiyasındadır. Biləcəri-Hacıqabul-Böyük Kəsik marşrutu ilə hərəkətini davam etdirəcək və yüklər Böyük Kəsik stansiyasından yola salınacaq.

Həm Rusiya, həm də Qazaxıstandan Azərbaycan vasitəsilə Ermənistana yüklərin növbəti partiyalarının göndərilməsi gözlənilir".

***Anar Kəlbiyev***

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:56 PM Page 11



# 2025-ci ilin 9 ayında Balakənin iqtisadi və sosial inkişafının göstəriciləri




***Ümumi məhsul buraxılışının həcmi 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 2025-ci ilin yanvar-sentyabr aylarında ilkin hesablamalara görə 0,7 faiz azalaraq 249234,5 min manat təşkil etmişdir. Məhsul buraxılışının 23,0 faizi sənaye, 0,7 faizi tikinti, 41,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,2 faizi informasiya və rabitə, 30,7 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ilin yanvar-sentyabr aylarında 57292,3 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 22,9 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənaye məhsulunun 87,0 faizi emal sektorunda, 11,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Kənd təsərrüfatı məhsullarının yığımı davam edir və oktyabr ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 45008,0 ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,4 faiz çox dənli, dənli paxlalı və yağlı bitkilər, 3011,0 ton (54,8 faiz az) kartof, 10244,0 ton (58,5 faiz az) tərəvəz, 1905,0 ton (54,9 faiz az) bostan məhsulları, 19799,8 ton (8,4 faiz çox) meyvə və giləmeyvə və 336,0 ton (2,4 faiz çox) üzüm və 118,7 ton (12,7 faiz çox) tütün yığılmışdır.

2025-ci ilin yanvar-sentyabr aylarında diri çəkidə 3325,6 ton ət, 16908,0 ton süd, 8325,0 min ədəd yumurta və 77,0 ton yun istehsal edilmişdir. 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə ət istehsalı 19,6 ton və 0,6 faiz, süd istehsalı 136,7 ton və ya 0,8 faiz, yumurta istehsalı 196,0 min ədəd və ya 2,4 faiz və yun istehsalı 1,0 ton və ya 1,3 faiz artmışdır. 2025-ci il oktyabrın 1-i vəziyyətinə rayon üzrə 36891 baş qoyun və keçi, 27355 baş iribuynuzlu mal-qara, ondan 13016 baş inək və camış mövcud olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında əsas kapitala 8779,4 manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 35,7 faiz çox investisiya yönəldilmişdir.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ilin yanvar-sentyabr aylarında 530,0 min ton yük və 5535,0 min sərnişin daşınmışdır. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 6,4 faiz, sərnişin daşınması isə 5,5 faiz artmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən 2025-ci ilin yanvar-sentyabr aylarında 3042,1 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,6 faiz çox xidmət göstərilmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 239518,1 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 55442,7 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 0,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,8 faiz artmış, ticarət şəbəkəsində 160942,9 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları 78575,2 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2025-ci ilin yanvar-avqust aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 618,6 manat təşkil etmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında əhalinin sayı ilkin hesablamalara görə 184 nəfər və ya 0,2 faiz artaraq 2025-ci il oktyabr ayının 1-i vəziyyətinə 101203 nəfərə çatmışdır.

***Balakən Rayon Statistika İdarəsinin rəisi***
***Əsəbəli Alqayev***

# Əsabil Qasımovun gizli narahatlığı

## Keçmiş deputat-oliqarx niyə xof içindədir?

***Ağır cinayətlərdə ittiham edilən və haqqında 4 aylıq ev dustaqlığı verilən Ramiz Mehdiyevlə sıx əlaqələri olan şəxslərin siyahısına daha biri əlavə olunub. Bu, keçmiş deputat, iş adamı, az qala Bakının hər yanında hündürmərtəbəli binalar tikən, ən əsası isə Rusiyada nəhəng biznes sahibi olan Əsabil Qasımovdur. Onun məhz Mehdiyevin himayəsi altında deputat mandatı qazandığı və öz biznesini genişləndirdiyi iddia olunub.***

Həmin iddiaların ardınca yerli KİV-ə açıqlama verən Qasımov isə Mehdiyev və ətrafını düşmən adlandırıb, onlarla əlaqələrinin olmasını təkzib edib. Buna cavab olaraq isə "boz kardinal"ın kürəkəni, keçmiş deputat İlham Əliyev CityPost-a açıqlamasında sərt fikirlər səsləndirib: "O, bizim qapımızın ağzında günlərlə əsgər kimi dayanan, ayaqqabımızı cütləyən adam olub... Əsabil şahmat oyunundakı piyada əsgər kimi bir şeydir. Onunla düşmənçilik etməyi özümə rəva bilmərəm. Bu gün onun haqqında daha çox bəhs etmək onu şərəfləndirmək kimi bir şey olar. Elə etməsin ki, açım sandığı, töküm pambığıg Bir qədər də dərinə getsə, vaxtı ilə yaltaqcasına bizim məclisdə oturub, şənimizə işlətdiyi pafos dolu ifadələr olan videoları sosial şəbəkələrdə yayıb, onun kim və nə qədər rəzil biri olduğunu cəmiyyətə çatdıraram".



Əsabi müəllim isə bu açıqlamanın ardından susqunluğa bürünüb.

İctimai müzakirələrdə deyilir ki, Mehdiyevin kürəkəninin dedikləri Qasımovun "boz kardinal"la yaxınlığına şübhə yeri qoymur. Elə onun keçmiş deputat həmkarı olan İlham Əliyevin sözlərinə cavab verməməsi də bununla izah edilir. Bildirilir ki, Əsabil müəllim yenidən danışarsa bəhs olunan videoların yayıla biləcəyindən ehtiyatlanır.

İddialara görə, Mehdiyevin kürəkəni əslində Qasımova məxsus "Karat Holdinq" vasitəsilə qeyri-rəsmi şərik olublar. "Karat Holdinq" MMC 14 mart 2004-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 430 manatdır. Şirkətin hüquqi ünvanı Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, ev 201-də yerləşir. Holdinqin qanuni təmsilçisi Umudov İqdam Əliş oğludur.

Ondan əvvəl şirkəti Əsabil Qasımov təmsil edib. Ümumiyyətlə, "Karat Holdinq"in sahibi kimi məhz onun adı çəkilir.

Ə.Qasımov Milli Məclisin IV çağırış deputatı olub. O, parlamentdə 79 saylı İmişli seçki dairəsini təmsil edib. "Karat"ın hazırkı qanuni təmsilçisi İqdam Umudov isə onun qaynıdır.

Sabiq deputat-oliqarxın Azərbaycandakı şirkətləri aşağıdakı kimi sıralanır:

- "Karat Holdinq" MMC;
- "Karat" MTK
- "İdeal" MMC
- "AzInvest" Tikinti Şirkəti
- "Everest-M"
- "Şin Servis"
- "Karmen" MMC (Un dəyirmanı)
- Hökməli Makaron Fabriki
- Hökməli Kisə Fabriki
- "ASTE"L MMC (Quşçuluq fabrikləri)
- Gəncədə "Fatoğlu" un dəyirmanı
- Bakıda "Marina Plaza" oteli
- Bakıda "Premium" market

İddia edilir ki, Ə.Qasımov biznesinin qısa vaxtda böyüməsinə, bu arada həm də Milli Məclis üzvü seçilməsinə görə məhz Ramiz Mehdiyevin himayədarlığına borcludur. Mehdiyev Prezident Administrasiyasının rəhbəri olarkən onu nəinki ölkə daxilində himayə edib, hətta Qasımova Rusiyada nəhəng biznes qurması üçün öz kanalları vasitəsilə əlindən gələn köməyi əsirgəməyib. Nəticə etibarilə bu gün sabiq deputat-oliqarx Yessentuki, Kislovodsk və Jeleznovodskda böyük sanatoriyaların sahibinə çevrilib. "Qasımova məxsus "Karat-Holdinq" hələ 2016-cı ilin iyun ayında Yesentukidə ümumi sahəsi 26,3 min kvadratmetr olan "İstoçnik" sanatoriyası açılıb. 340 çarpayılıq "İstoçnik " mədə-bağırsaq , tənəffüs , dayaq-hərəkət sistemləri, ürək-damar, dəri xəstəlikləri, şəkərli diabet xəstəliklərinin profilaktikası və müalicəsi aparılır. Əsabil müəllimin həmin il bu layihəyə 1,5 milyard rubl həcmində investisiya qoyduğu bildirilir. Bundan əlavə, "Karat-Holdinq" şəhərin mərkəzində oxşar profilli "İstoçnik Jeleznovodsk" sanatoriyası tikib. İstirahət mərkəzi 2021-ci ilin sonuna kimi istifadəyə verilib və 420 nəfərə qədər qonaq qəbul edə bilər. Bu layihəyə də sabiq deputat təxminən 2 milyard rubl investisiya qoyub. Şirkət hələ 2017-ci ildə Kislovodsk şəhərində yerləşən "Akademiçeskiy" sanatoriyasına 25 milyon dollar sərmayə yatırıb" deyə məlumatlarda vurğulanır.

Ötən il isə Əsabil müəllimə məxsus şirkətin Jeleznovodsk xüsusi iqtisadi zonasında üç sanatoriyanın inşasına 9 milyard rubl (97,4 milyon ABŞ dolları) sərmayə qoymağı planlaşdırdığı iddia olunmuşdu. Kurortun rəhbəri Yevgeni Bakulin azərbaycanlı investorun ümumi sahəsi 9 hektar olan üç torpaq sahəsi üçün müqavilə bağladığını bildirmişdi. Bakulin konkret ad çəkməmişdi, lakin sonradan həmin investorun məhz Əsabil müəllim olduğuna dair xəbərlər yayılmışdı. Üstəlik, o, sözügedən xəbərləri təkzib etmədiyindən Bakulinin məhz sabiq deputat-oliqarxı nəzərdə tutduğuna şübhə qalmamışdı.

Hesab edilir ki, Qasımovun birdən-birə Rusiyaya bu qədər böyük məbləğlərdə investisiya qoyması müəyyən təminat olmadan mümkünsüz görünür. Və güman olunur ki, Əsabil müəllimin təkzib eləməyə çalışmasından asılı olmayaraq həmin təminatçı çox güman məhz Ramiz Mehdiyev şəbəkəsidir. Həmin iddianı qüvvətləndirən başlıca detal isə sözügedən şəbəkəyə daxil olan bütün şəxslərin Rusiyada ciddi bizneslərinin mövcudluğudur. Belədə sabiq deputat-oliqarx təbii ki, istisna ola bilməzdi...

Görünür, barəsindəki çoxsaylı iddia və ittihamlara dair uzun illərdir israrla susduğu halda Ramiz Mehdiyev məsələsi ortaya çıxınca Əsabil müəllimin qəfildən, özü də sərt üslubda təkzibə ehtiyac duyması, Mehdiyevin kürəkəninin ağır cavabından sonra yenidən susqunluğa qərq olması da elə bu səbəbdəndir.

***Sənan Mirzə***

**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Möhtəşəm Zəfərimizin 5-ci ili



***Hər bir xalqın tarixində elə günlər olur ki, həmin günlər əsrlər boyu unudulmaz bir rəmzə çevrilir, xalqın yaddaşında əbədi iz buraxır. Azərbaycan xalqı üçün belə günlərdən biri də 8 Noyabr - Zəfər Günüdür. Bu gün 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm qələbənin, torpaqlarımızın azadlığının və milli birliyin təntənəsidir.***

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda xalqımızın apardığı haqq mübarizəsi idi. Azərbaycan Ordusu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində yüzlərlə kəndi, şəhəri və strateji yüksəklikləri düşməndən azad edildi. Bu mübarizə yalnız hərbi deyil, həm də mənəvi qələbə idi - Azərbaycan xalqı öz birliyini, gücünü və vətənə sədaqətini bütün dünyaya nümayiş etdirdi.

8 noyabr 2020-ci il tarixində Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərinin azad edilməsi ilə müharibənin taleyi dəyişdi. Şuşa qalasının alınması Azərbaycan Ordusunun peşəkarlığını və igidliyini bir daha sübut etdi. Məhz bu tarixi hadisədən sonra Ermənistan kapitulyasiya aktına imza atdı və beləliklə, Azərbaycan 30 ilə yaxın davam edən işğala son qoydu.

Prezident İlham Əliyevin həmin gün dediyi sözlər xalqın yaddaşında silinməz yer tutdu: “Şuşa azaddır! Bu, bizim böyük qələbəmizdir!”. Artıq şuşalılar Zəfər Gününü elə Şuşada, Xocalıda, Xankəndidə qeyd edirlər. Zəfər Günü ərəfəsi bu möhtəşəm günün elan olunduğu Şuşa sakinləri ilə həmsöhbət olduq.

“Unikal” qəzetinə müsahibəsində Şuşanın Kosalar kənd sakini Çingiz Məmmədov öz hisslərini bölüşüb. 64 yaşlı Şuşa sakini bu tarixi günü doğma yurdda qeyd etməyin sevincindən danışıb:”1992-ci ilin mayın 9-da Şuşanın Kosalar kəndini məcburi tərk etməli olduq. Vətən həsrətinə uzun illər dözüb bu günü gözlədik. Dövlətimiz bizi Xocalının Ballıca kəndində evlə təmin etdi. 8 nəvəmlə yurdumuza geri döndüm. Zəfərimizin 5 illiyini yurdumuzda qeyd etmək bir başqadır. Bu sevincimi Zəfər Günü ilə bağlı şeirimdə ifadə etmişəm. Bura köçəndə prezidentimizlə görüşdüm. Qolumdan tutdu dedi şəkil çəkdirək. Orada mənim daha nə arzum olduğunu soruşdu. Dedim vətənə aydın səma, xalqıma can sağlığı, dövlətimə ucalıq arzulayıram. Çünki ən böyük arzum Ali Baş Komandanın rəhbərliyi, ordumuzun qəhrəmanlığı sayəsində gerçəkləşdi. Qismətdə Zəfər Gününü öz evimizdə qeyd etmək, qələbə paradını öz yurdumuzda izləmək də varmış. Bu günə şükür edirəm. Allah şəhidlərimizin ruhunu şad etsin. Bu sevinci, bu günü bizə onlar bəxş etdilər”.



Digər sakin, Məhiyyədin Əmirsalov isə Xocalının Təzə binə kəndində Zəfər Gününü qeyd edəcək. Şuşanın Quşçular kəndindən olan sakin deyir ki, ata yurdunu 30 yaşda tərk edib. Məhz bu qələbə sayəsində 63 yaşında Zəfər Gününü öz doğma torpağında qeyd edəcək: “ Biz bu ilin iyun ayının 14-də evimizə qayıtdıq. İnşallah Xankəndidə Zəfər paradını izləyəcəyik. Bu hissi ifadə etməyə kəlmələr acizdir. Öz torpağıma yenidən qayıtmaq ən böyük arzum idi. İgid əsgərlərimiz bu sevinci bizə yaşatdılar. Ali Baş Komandan başda olmaqla şəhidlərimizə bir ömür minnətdarıq. Torpağımıza qayıtmaqla yenidən doğulduq. İndi babalarımızın yurdunun işığı yanır, qəbirləri əsir deyil. Ruhları azad dolaşır bu torpaqda. Qələbə çox şeydir. Bizim qayıdışımızla sönən ocaqlarımız yenidən qalandı. Artıq dağlara yağı ayağı yox, öz balalarımızın ayağı toxunur. Torpaq da bu qələbə ilə arındı, təmizləndi. Bu günü ana yurdda qarşılamaq qürurvericidir, duyğuludur, fəxrdir!”

Zəfər Günü təkcə hərbi qələbənin deyil, həm də milli birliyin, xalqın iradəsinin və müstəqil Azərbaycanın qüdrətinin simvoludur. Bu gün hər il ölkə boyu böyük təntənə ilə qeyd olunur. Məktəblərdə, universitetlərdə, dövlət müəssisələrində və hərbi hissələrdə tədbirlər keçirilir, şəhidlərimizin xatirəsi ehtiramla yad edilir.

Zəfər Günü həm də gənc nəsillərə vətənpərvərlik ruhunun aşılanması, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə sadiqliyin təbliği baxımından mühüm əhəmiyyət daşıyır.



Bu qələbənin bünövrəsində minlərlə qəhrəman Azərbaycan övladının qanı, canı dayanır. Şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Onların fədakarlığı sayəsində bu gün Azərbaycan qalib dövlət kimi dünya arenasında öz sözünü deyir.

Bir sözlə, Zəfər Günü - Azərbaycanın müasir tarixində ən parlaq səhifədir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə bizim xalqın tariximizə qızıl hərflərlə əbədi həkk etdiyi unudulmaz kəlmədir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Düşməndən qisas alan qəhrəman Nəriman Əlizadə



***Vətəninin müqəddəsliyinə tapınaraq 44 günlük haqq savaşımızda canını ona fəda edib qəhrəman adını qazanan igid oğullardan biri də 6 mart 1998-ci ildə Biləsuvar rayonunda dünyaya göz açan Nəriman Əlizadədir. Damarında qeyrət qanı axan, ürəyi sevdalı gənc doğma Azərbaycanına gərəkli oğul olmağı bacardı. 22 yaşında əzəli yurd yerimiz Qarabağın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalmaqla. Bu şərəfli ölümü ilə Nəriman həm də xalqın iftixar mənbəyinə, qürur yerinə çevrildi.***

Həyatı dərk edən gündən Nəriman Əlizadə ömrün mənasını, xoşbəxtliyi Vətəninə, xalqına layiqli xidmətdə görüb. İdmançı olub Azərbaycanın üçrəngli bayrağını müxtəlif ölkələrdə yüksəkliyə qaldırmaq onu arzuların zirvəsində dayanır. Futbola marağı, yaxşı oynaması ona “Rəvan”, “Neftçi” futbol klublarının aşağı yaş qruplarında çıxış etməyə imkan verib. Həmçinin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına da daxil olub. Təhsil aldığı vaxtlar ağıllı, dərin zəkası, idmanda uğurları onu tələbə yoldaşlardan fərqləndirib. Bütün bunlar olan yerdə ürəyi Nərimanı canına yağı dadanmış yurdunun müdafiəsinə səsləyib. Odur ki, hər şeyi bir yana qoyub, döyüş meydanında düşmənin başını əzmək məqsədilə ordu sıralarına gedib. Cəbhə bölgəsində Vətənin keşiyini çəkən əsgər yaxşı keyfiyyətlərinə görə hərbi hissədə hamının sevimlisinə çevrilib. Burada qalmaqla 2020-ci ilin sentyabrında həyatını hərbiyə bağlayıb. Və bu şərəfli peşənin çətin yollarında iradəli, dözümlü, əzmli olmaqdan ötrü təlimlərə həvəslə qatılıb. Qısa müddətdə qazandığı peşəkarlıq, bacarığı komandirlərin diqqətini cəlb edib.

44 günlük haqq savaşımızda qəlbi düşmən tapdağında qalan torpaqların azad edilməsi istəyi ilə alışıb-yanan Nəriman odun-alovun içində ölümə meydan oxumaqla döyüşə qatılıb. Bir-birindən ağır əməliyyatlarda yağını məhv edib, İşğaldan azad olunmuş ərazilərdə üçrəngli Azərbaycan bayrağını sancan oğullardan biri olub. Qeyri-bərabər döyüşlərdə həmişə öndə gedib yağıya sarsıdıcı zərbələr vuran Nəriman daha sonra Cəbrayıl, Füzuli, Xocavənd rayonları istiqamətində gedən vuruşlarda yağıya qan qusdurub. Sinəsində yaralanan qəhrəman Vətən oğlu 27 oktyabrda əbədiyyət dünyasına qovuşub.29 noyabr 2020-ci ildə doğulduğu doğma yurdda-Biləsuvar şəhər qəbiristanlığında izdihamla hər qarışını əziz bildiyi torpağa tapşırılıb. Dövlət tərəfindən “Vətən uğrunda”, “Cəsur döyüşçü”, Xocavəndin və Füzulinin azadlığına görə medallar ilə təltif olunub.

Bəli, Nəriman Nurəhməd oğlu Əlizadə Vətən üçün doğulmuşdu. Onu özündən çox sevdi, uğrunda qəhrəman kimi vuruşdu, şüurlu surətdə canını ona fəda etdi. Buna görə də qərinələr boyunca Nərimanın adı Vətənlə bir çəkiləcək.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Ucarda nəqliyyat və rabitənin statistikası

***2025-ci ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən 3896,8 min manatlıq xidmət göstərilmiş və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 16,2 faiz çox olmuşdur. Avtomobil nəqliyyatı ilə 2025-ci ilin yanvar-sentyabr aylarında 4161,0 min sərnişin, 988,0 min ton yük daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,8 faiz və 6,1 faiz artmışdır.***

2025-ci ilin yanvar-sentyabr aylarında informasiya və rabitə sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 1625,3 min manatlıq xidmət göstərilmiş, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə və ya 843,4 min manat çox olmuşdur.

***Ucar Rayon Statistika idarəsinin***
***baş məsləhətçisi Tural Əzizli***

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:57 PM Page 13



## Bakı Dövlət Universitetinə "QS 5 Stars" mükafatı təqdim edilib

***2025-ci il 6 noyabr tarixində Koreya Respublikasının paytaxtı Seul şəhərində keçirilən "QS Higher Ed Summit: Asia Pacific 2025" tədbiri çərçivəsində Bakı Dövlət Universitetinə "QS 5 Stars" mükafatı təqdim edilib.***

Bu nüfuzlu beynəlxalq qiymətləndirmə sistemi ali təhsil müəssisələrinin fəaliyyətini çoxsaylı meyarlar üzrə - tədrisin keyfiyyəti, məzunların məşğulluq imkanları, beynəlmiləlləşdirmə, tədqiqat və akademik inkişaf, eləcə də infrastruktur və sosial məsuliyyət sahələrində qiymətləndirir.

"QS 5 Stars" qiymətləndirilməsi Universitetin demək olar ki, bütün əsas sahələrdə yüksək səviyyədə fəaliyyət göstərdiyini göstərir. Belə ki, bu qiymətləndirmə yüksək səviyyəli tədris, qabaqcıl elmi tədqiqatlar, güclü beynəlxalq əməkdaşlıq, müasir tədris infrastrukturu və tələbə yönümlü yanaşmanın mövcudluğunu təsdiq edir.

## Bərbərxanalar və gözəllik salonlarından ƏDV geri almaq mümkün olacaq

***Azərbaycan vətəndaşları bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlərdəki xidmətlərə görə ödədikləri ƏDV-ni geri ala bilər.***

"Unikal" xəbər verir ki, bu, 2026-cı ilin büdcə zərfinin layihəsində öz əksini tapıb.

Bununla bağlı Vergi Məcəlləsində dəyişiklik edilməsi planlaşdırılır. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirə olunan dəyişikliyə əsasən, fiziki şəxs olan istehlakçılara bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlərin göstərdiyi xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edəcək.

## Ucarda məhsul bazarının statistikası

***2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə 210624,1 min manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,5 faiz çox istehlak malları satılmışdır.***

2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 103198,5 min manat, qeyri-ərzaq mallarının həcmi 107425,6 min manat olmuş və əvvəlki ilin eyni dövrünə nisbətən müvafiq olaraq ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 7,0 faiz azalmış, qeyri-ərzaq mallarının həcmi isə 9,1 faiz artmışdır.

*Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov*

# Naxçıvanda 10 il vergi alınmayacaq

***İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri və vergidən azadolmalar Naxçıvan Muxtar Respublikasına münasibətdə də şamil ediləcək.***



Bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirə olunan Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Sənədə əsasən, Naxçıvan Muxtar Respublikasının rezidenti dedikdə Naxçıvan Muxtar Respublikasında və ya mərkəzləşdirilmiş qaydada vergi uçotuna alınan və bilavasitə Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşüləcək.

Naxçıvan Muxtar Respublikasının rezidentləri 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad ediləcək.

Naxçıvan Muxtar Respublikasının rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə vergidən azad ediləcək.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə xammal və materialların idxalı 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azad ediləcək.

İnvestisiya təşviqi sənədini almış Naxçıvan Muxtar Respublikasının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal və xidmətlərin göstərilməsi (işlərin görülməsi) məqsədilə xammal və materialların idxalı 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azad ediləcək.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azaddır.

ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan Naxçıvan Muxtar Respublikasının rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı ƏDV-dən azad edilməyəcək.

# Zəfərin 5 ili: "Aztelekom" Böyük Qayıdışa töhfə verməyə davam edir

***Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən beş il ötür.***

"Unikal" xəbər verir ki, bu illər ərzində azad edilmiş ərazilərdə həyat yenidən canlanır, şəhərlər və kəndlər müasir infrastrukturla bərpa olunur. AZCON Holding şirkətlərindən olan "Aztelekom" MMC də bu prosesdə fəal iştirak edərək "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında rabitə və internet infrastrukturunun qurulması istiqamətində ardıcıl işlər görür.

Hazırda ümumilikdə 9 şəhər, 18 kənd və qəsəbə rabitə xidmətləri ilə təmin olunub. İnfrastrukturdan 6020 abunəçi istifadə edir. Onlardan 1022 nəfər əlavə olaraq telefon, 1316 nəfər isə İPTV xidmətlərindən yararlanır.




Bölgələrdə quraşdırılmış 19 OLT (Optik Xətt Terminalı) avadanlığı vasitəsilə müasir GPON (Gigabit Tutumlu Passiv Optik Şəbəkə) texnologiyası üzərindən sabit və sürətli internet bağlantısı yaradılıb.

Qarabağ regionu üzrə layihənin 2025-ci il üçün nəzərdə tutulan mərhələsində 22 şəhər və rayonlararası magistral xəttin tikintisi planlaşdırılıb. Onlardan 6 magistralda işlər artıq yekunlaşıb, 7 istiqamətdə tamamlanma mərhələsindədir, 8 istiqamətdə tikinti davam edir, 1 magistral üzrə isə işlərin ilin sonunadək başlanması planlaşdırılır. Ümumi uzunluğu 680 kilometr olan fiber-optik magistral şəbəkə bölgənin davamlı və təhlükəsiz rabitə təminatını gücləndirəcək.

Şirkət gələcək illərdə də bu istiqamətdə fəaliyyətini genişləndirərək regionda müasir və dayanıqlı rabitə infrastrukturunun tam formalaşdırılmasına töhfə verəcək.

# Milli Kitabxanada "6 noyabr - Televiziya və Radio İşçiləri Günü" adlı ənənəvi kitab sərgisi açılıb

***Noyabrın 6-sı Azərbaycan Televiziyası və Radiosu Günü olaraq televiziya və radio işçilərinin peşə bayramı kimi qeyd edilir.***

Bu əlamətdar günlə bağlı Milli Kitabxanada "6 noyabr - Televiziya və Radio İşçiləri Günü" adlı ənənəvi kitab sərgisi açılıb.

Sərgidə Azərbaycan milli radiosu və televiziyasının təşəkkülü, tarixi mərhələləri, müstəqillik illərinin televiziyası, müasir inkişaf meylləri və elektron KİV vasitəsi kimi formalaşması, bütövlükdə Azərbaycan televiziyasının inkişaf tarixi haqqında Azəbaycan və xarici dillərdə kitablar nümayiş olunur.

Xatırladak ki, 1926-cı il noyabrın 6-da Bakı şəhərində radiostansiyanın istismara verilməsi ilə ölkəmizdə ilk dəfə radio verilişlərinin yayımına başlanılıb. Həmin gün ölkə paytaxtının küçələri və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə "Danışır Bakı" ifadəsi yayılıb. Bu hadisə o vaxt Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi.

Azərbaycan Televiziyası yaranandan sonra isə bu tarix təkcə radionun deyil, teleradionun yaranma günü kimi qeyd olunmağa başlayıb. Bakı Televiziya Studiyası ilk dəfə 1956-cı il fevralın 14-də efirə çıxıb. İlk veriliş günü ekranda mərhum sənətkarımız Nəcibə Məlikova görünüb və o, çıxışına "Göstərir Bakı" sözləri ilə başlayıb. Həmin gün televiziyada "Bəxtiyar" bədii filmi nümayiş etdirilib.

Hazırda Azərbaycanda ümumrespublika, regional, kabel, internet və peyk televiziyası, habelə ümumrespublika və regional radio fəaliyyət göstərir.

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:57 PM Page 14



# "Konstitusiya və Suverenlik İli" tarixi hadisədir

***Azərbaycan xalqının suverenlik arzusu və müstəqilliyə olan iradəsi, 1918-ci ildə qurulmuş və cəmi iki il davam edən Azərbaycan Xalq Cümhuriyyətindən irəli gələn ənənələrə söykənirdi.***

Cümhuriyyətin süqutundan sonra 70 ilə yaxın Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqı öz müstəqillik arzularını daim ürəyində yaşatmışdı.

1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi. Bundan sonra Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı. Bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. Dövlətimizin müstəqillik tarixinin ən əsas hadisələrindən biri də Konstitutsiyanın qəbul edilməsi olmuşdur. İndi gəlin Azərbaycanın Konstitusiyasının yaranma tarixi və onun formalaşma mərhələlərinə nəzər salaq. İlk Konstitusiya cəhdləri - Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci il 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldı. AXC dövründə müstəqil dövlətin əsas qanunu - yeni Konstitusiyası hazırlanmalı idi. Parlament xüsusi komissiya yaradaraq Konstitusiya layihəsi üzərində işləməyə başlaməşdı. Lakin Cümhuriyyətin ömrü cəmi 23 ay olduğundan bu layihə tam başa çatmadı. Yəni, ilk Azərbaycan Konstitusiyası qəbul edilmədən 1920-ci ildə Cümhuriyyət süqut etdi. Sovet dövründə qəbul edilmiş Konstitusiyalar haqqında isə qeyd etmək olar ki, Azərbaycan Sovet İttifaqının tərkibinə daxil olduqdan sonra bir neçə dəfə yeni Konstitusiya qəbul edildi:

1. 1921-ci il Konstitusiyası - Azərbaycan SSR-in ilk sovet Konstitusiyası idi. O, SSRİ-nin əsas prinsiplərinə uyğun tərtib olunmuşdu.
2. 1937-ci il Konstitusiyası - "Stalin Konstitusiyası"na əsaslanaraq qəbul edildi və sovet quruluşunu əks etdirirdi.
3. 1978-ci il Konstitusiyası - SSRİ-nin 1977-ci il Konstitusiyasına uyğunlaşdırılmışdı və o vaxtkı ictimai-siyasi sistemi təsdiqləyirdi.




Bu konstitusiyalar Azərbaycanın müstəqil dövlət kimi deyil, SSRİ tərkibində bir respublika kimi hüquqi statusunu müəyyən edirdi. 1991-ci il 18 oktyabr - Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Lakin müstəqil dövlətdə sovet dövründən qalan Konstitusiyanın işləməsi artıq mümkün deyildi. Buna görə 1992-1995-ci illərdə yeni, milli Konstitusiyanın hazırlanması prosesi başlandı. Bu işə ümummilli lider Heydər Əliyev rəhbərlik etdi. Onun təşəbbüsü ilə Konstitusiya Komissiyası yaradıldı və 1995-ci il - Müstəqil Azərbaycanın ilk Konstitusiyası - Yeni Konstitusiya layihəsi ümumxalq müzakirəsinə çıxarıldı. Nəhayət ki, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu keçirildi. Seçicilərin əksəriyyəti "Bəli" deyərək layihəni qəbul etdi. Nəticədə, Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qüvvəyə mindi. Bəs konstitutsiya nə üçün lazımdır? Konstitusiya dövlətin əsas qanunudur. O, ölkənin idarə olunma qaydalarını, vətəndaşların hüquq və azadlıqlarını, dövlət orqanlarının səlahiyyətlərini və qarşılıqlı münasibətlərini müəyyən edən əsas hüquqi sənəddir. Yəni həm dövlətin vəzifələrini, həm də vətəndaşın məsuliyyətini göstərir. Məhz buna görə də Konstitusiya Günü hər kəsə xatırladır ki, ölkədə qanunların aliliyi əsas prinsipdir, dövlət də, vətəndaş da qanun qarşısında bərabərdir. Bu gün həmin hüquqların əhəmiyyətinə diqqət yönəldilir. 12 noyabr Konstitusiya Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və qanunçuluğunun rəmzidir. Bu gün hər bir vətəndaş üçün qanuna hörmət, vətəndaş məsuliyyəti və milli qürur günüdür. Konstitusiyasının prinsipləri göstərir ki, ölkəmiz suveren, müstəqil, demokratik, hüquqi, dünyəvi və sosial ədalətli bir dövlətdir. Bəs Azərbaycan suveren dövlətdir dedikdə nəyi nəzərdə tuturuq. Yəni dövlətimiz heç bir başqa dövlətə tabe deyil, xalq öz taleyini müstəqil şəkildə özü müəyyən edir, dövlətin ərazisi, sərhədləri və qanunları yalnız Azərbaycan xalqına məxsusdur. Bununlada demək olar ki, dövlət hakimiyyəti xalqın iradəsindən yaranır. Xalq öz hakimiyyətini həm seçkilər vasitəsilə, həm də referendum yolu ilə həyata keçirir. Heç kim xalqın adından özbaşına danışa və ya qərar verə bilməz. Elə buna görə də, Azərbaycan Konstitusiyası Azərbaycan xalqı üçün xüsusi əhəmiyyətə və təntənəyə malikdir. O, vətəndaşların hüquqlarını qoruyur, onların səs və seçki hüquqlarını təmin edir, sosial ədaləti və bərabərliyi gücləndirir, həmçinin dövlətin suverenliyini və xalqın milli birliyini möhkəmləndirir. Yəni Konstitusiya xalqın həyatını, azadlığını və dövlətçiliyi birgə qoruyan və hər bir vətəndaşın gündəlik həyatda "haqqım var" deyə biləcəyi əsas qanundur.

Prezidentin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" kimi elan edilmişdir. Bu qərar Konstitusiyanın qəbulunun 30-cu ildönümünə təsadüf edir, hüquqi dövləti, suverenliyi, konstitusiyanı və dövlətçilik dəyərlərini bir il ərzində xüsusi vurğulamaq məqsədi daşıyır. Eyni zamanda, ölkənin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi sahəsində mühüm hadisələr baş vermişdir ki, bu isə "suverenlik" hissəsinin vurğulanmasını əsaslandırır.

*Abşeron Rayon Statistika İdarəsinin rəis müavini*
*A.Allahverdiyeva*




## Goranboy rayonunda əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi

***2025-ci ilin yanvar-sentyabr aylarında əhaliyə 46681,4 min manat dəyərində ödənişli xidmət göstərilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,2 faiz çox olmuşdur.***

Hüquqi şəxslər tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ümumi yekunun 27,3 faizini təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,5 faiz artaraq 12731,7 min manat olmuşdur. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların əhaliyə göstərdiyi ödənişli xidmətlərin dəyəri isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,9 faiz artaraq 33949,7 min manat olmuşdur. Əhaliyə göstərilən ödənişli xidmətin 24,0 faizi və ya 11183,3 min manatı dövlət, 76,0 faizi və ya 35498,1 min manatı isə qeyri-dövlət mülkiyyətinin payına düşür. 2025-ci ilin yanvar-sentyabr aylarında 4575,1 min manatlıq məişət xidməti göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz çox olmuşdur. Məişət xidmətləri ödənişli xidmətin ümumi dəyərinin 9,8 faizini təşkil edir. Məişət xidmətinin həcminin 7,2 min manatı və ya 0,2 faizi hüquqi şəxslərin, 4567,9 min manatı və ya 99,8 faizi hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar hesabına formalaşmışdır.

**Goranboy rayonunda əhaliyə göstərilən ödənişli xidmətlər üzrə əsas göstəricilər**

| Göstəricinin adı | 2025-ci ilin yanvar-sentyabr ayları | 2024-cü ilin yanvar-sentyabr ayları |
|---|---|---|
| Əhaliyə göstərilən ödənişli xidmətlərin ümumi dəyəri, min manatla | 46681,4 | 40035,5 |
| Əhaliyə göstərilən ödənişli xidmətlərin əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə | 109,2 | 108,6 |
| | | |
| Əhaliyə göstərilən ödənişli xidmətlərin ümumi dəyərindən məişət xidmətlərinin dəyəri, min manatla | 4575,1 | 3961,1 |
| Əhaliyə göstərilən məişət xidmətlərinin əvvəlki ilin müvafiq dövrünə nisbətən, sabit qiymətlərlə, faizlə | 109,5 | 108,9 |

*Goranboy Rayon Statistika İdarəsi*

## Siyəzəndə kənd təsərrüfatı üzrə məhsul buraxılışı haqqında göstəricilər




***2025-ci ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatı üzrə ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 173472,0 min manat təşkil etmiş, 2024-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 0,7 faiz artmışdır.***

Məhsul buraxılışının 9727,5 min manatını və ya 5,6 faizini bitkiçilik məhsulları, 163744,5 min manatını və ya 94,4 faizini heyvandarlıq məhsulları təşkil etmişdir.

*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*
*Kamil Xəlilov*

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:58 PM Page 15



# "Qərb Zaporojye AES-da təxribat hazırlayır" - Rusiya kəşfiyyatı



***Qərb ölkələri Zaporojye atom Elektrik Stansiyasında (ZNPP) təxribat törətmək və insidentdə Rusiyanı günahlandırmaq niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici Kəşfiyyat Xidməti (SVR) öz saytında məlumat yayıb.

"Zaporojye Atom Elektrik Stansiyasının nüvə reaktorunun nüvələrinin əriməsi ilə nəticələnən təxribat variantı nəzərdən keçirilir. Böyük Britaniyanın nüfuzlu "Chatham House" qeyri-hökumət təşkilatı artıq belə bir qəzanın nəticələrini hesablayıb", - kəşfiyyat rəsmiləri bildirib.

Qeyd olunur ki, London Moskvanın üzərinə məsuliyyəti necə qoyacağını hələ dəqiq bilmir, ona görə də hər hansı mümkün hadisələrə hazırlaşır və müvafiq arqumentlər formalaşdırır.

*Gülayə Mecid*

# Elon Mask "Tesla"dan istefa verə bilər



***Əgər investorlar onun təxminən 1 trilyon dollarlıq təzminat paketini rədd edərlərsə, Elon Mask istefa verə bilər.***

"Unikal" "Reuters"ə istinadən xəbər verir ki, bu barədə "Tesla"nın direktorlar şurası açıqlayıb.

"Tesla" səhmdarları bu gün Maska şirkət səhmlərinin 878 milyard dollara qədər ödənilməsi və ya onun getməsi riski ilə bağlı səsvermə keçirəcəklər ki, bu da səhmlərin düşməsinə səbəb ola bilər.

Ekspertlər hesab edirlər ki, bu qərar dünyanın ən varlı adamına ənənəvi korporativ idarəetmə qaydalarının tətbiq edilib-edilməməsi ilə bağlı referendumun keçirilməsinə bərabərdir.

*Ağarza Elçinoğlu*

# "Rusiya dünyada sabitliyi pozan qüvvə olaraq qalacaq" - Rutte



***NATO-nun baş katibi Mark Rutte NATO müttəfiqlərini Rusiya ilə uzunmüddətli qarşıdurmaya hazırlaşmağa çağırıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə Ruminayada jurnalistlərə açıqlamasında deyib.

"Rusiya Avropada və dünyada sabitliyi pozan qüvvə olaraq qalacaq. Onlar uzunmüddətli qarşıdurmaya hazırlaşırlar. Biz sadəlövh ola bilmərik. Biz də hazır olmalıyıq", - Rutte bildirib.

Bundan əvvəl Rusiya prezidenti Vladimir Putin Slovakiyanın baş naziri Robert Fitso ilə görüşü zamanı Rusiyanın Qərb ölkəsinə hücum planları ətrafında yaranmış isterikaya görə Qərb siyasətçilərini "qorxu filmi mütəxəssisləri" adlandırmışdı.

*Gülayə Mecid*

# Overçuk Azərbaycan hakimiyyətinə təşəkkür etdi

***Rusiyadan Ermənistana 30 ildən sonra ilk qatar Gürcüstan və Azərbaycan ərazilərindən keçən yeni marşrut üzrə yola düşüb.***

"Unikal" "Kommersant"a istinadən xəbər verir ki, bunu Rusiya Baş nazirinin müavini Aleksey Overçuk deyib.

O, Azərbaycan və Gürcüstan hakimiyyətlərinə nəqliyyat əlaqələrini açdıqlarına görə təşəkkür edib: "Bu hadisə Cənubi Qafqazda sülhün bərqərar olmasına real, maddi töhfədir, regional sabitlik üçün gördüyümüz işlərin sübutudur".

*Ağarza Elçinoğlu*

# "Azərbaycana yük qatarlarının tranzitini təmin etməyə hazırıq!" - Paşinyan

***"Rusiya taxılını daşıyan qatarın Azərbaycan və Gürcüstandan keçməklə Ermənistana gəlməsi tarixi hadisədir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

"Ermənistanın Marqaradan Kornidzora və əks istiqamətdə - Azərbaycandan Türkiyəyə və



Türkiyədən Azərbaycana yük qatarlarının tranzitini təmin etməyə hazır olduğunu bir daha bildirirəm. Yarım saat ərzində hər iki tərəfdən bir qatar keçid məntəqəsinə gələ bilər və biz keçidi idarə etməyə tam hazırıq", - deyə Ermənistan hökumətinin başçısı bildirib.

*Gülayə Mecid*

# "2030-cu ilə qədər Aİ-yə üzv olmaq istəyirik" - Kobaxidze

***Brüsselin tənqidlərinə baxmayaraq, Gürcüstan 2030-cu ilə qədər Avropa İttifaqına qoşulmaq niyyətindədir.***

"Unikal" xəbər verir ki, bunu ölkənin baş naziri İrakli Kobaxidze deyib.

Hökumət başçısının sözlərinə görə, Aİ Gürcüstanın daxili siyasətindən narazılığını bildirsə belə, Tbilisi Avropa yolundan əl çəkməyəcək: "Bütün bunlar, əlbəttə ki, ikili standartlardan və ədalətsizlikdən xəbər verir. Bu o deməkdir ki, Avropa bürokratiyasının ciddi problemləri var. Bir daha təkrar edirəm ki, Avropa İttifaqındakı son dəyişikliklərlə bağlı fərqli gözləntilərimiz var. Biz 2030-cu ilə qədər Avropa İttifaqının üzvü olmaq istəyirik və ümid edirik ki, o vaxta qədər Aİ-də vəziyyət kökündən dəyişəcək".

Qeyd edək ki, Gürcüstan 2022-ci ildə Aİ üzvlüyünə müraciət edib.

*Ağarza Elçinoğlu*



# "Putin məndən kömək istəyib" - Tramp

***"Iki həftə əvvəl Rusiya prezidenti Vladimir Putin məndən Ukraynadakı müharibənin həllində kömək istəyib".***

"Unikal" xəbər verir ki, bunu ABŞ prezidenti Donald Tramp deyib.

Onun sözlərinə görə, telefon danışığı zamanı Putin 10 ildir ki, müharibəni bitirməyə çalışdığını, lakin buna nail olmadığını bildirib.



"Mən iki həftə əvvəl Putinlə danışdım və o dedi: "Biz 10 ildir ki, bu müharibəni bitirməyə çalışırıq, lakin buna nail ola bilmədik. İndi bunu düzəltmək sizin əlinizdədir"", - ABŞ prezidenti ifadə edib.

Tramp həmçinin qeyd edib ki, o, BMT-nin heç bir yardımı olmadan bəzi oxşar məsələləri bir saat ərzində həll edə bilib.

*Gülayə Mecid*

# Vardanyan daha bir separatçı addım atdı

***Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyan daha bir separatçı addım atıb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Belə ki, Vardanyan böyük oğlu David Vardanyanla telefon danışığı aparıb və ondan bu mesajı çatdırmasını istəyib: "Artsax" (Qarabağ - red.) olub, indi də var və olacaq".

Qeyd edək ki, Bakıda həbsdə olan Ruben Vardanyan ba-



rəsində cinayət işi üzrə məhkəmə prosesi davam edir.

*Ağarza Elçinoğlu*

# Şaraa COP30-da iştirak üçün Braziliyaya gedir

***Suriya prezidenti Əhməd Əl Şaraa Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 30-cu Tərəflər Konfransı (COP30) çərçivəsində keçirilən COP30 Liderlər Sammitində iştirak etmək üçün Braziliyaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Suriyanın rəsmi xəbər agentliyi SANA məlumat yayıb.

Qeyd olunur ki, Şaraa müxtəlif ölkələrdən onlarla lider və dövlət başçısının iştirakı ilə keçiriləcək sammitdə iştirak etmək üçün noyabrın 6-7-də Braziliyaya rəsmi səfər edəcək. Bildirilib ki, bu, Suriyadan prezidentlərin sammitdə ilk iştirakı olacaq.

Liderlər Zirvə görüşündən sonra 10-21 noyabr tarixlərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (COP30) keçiriləcək. COP30-da çoxsaylı ölkələrdən nümayəndələrin, həmçinin özəl sektordan və vətəndaş cəmiyyəti təşkilatlarından minlərlə insanın iştirakı gözlənilir.

*Gülayə Mecid*

42_27 IYUl-QARA.qxd 11/6/2025 8:58 PM Page 16



# Qurban Qurbanovun bu sözləri Türkiyədə gündəm oldu

***UEFA Çempionlar Liqasında doğma meydanda "Çelsi" ilə 2:2 hesablı bərabərliyə razılaşan "Qarabağ", yalnız tarixi nəticə ilə deyil, həm də baş məşqçisi Qurban Qurbanovun səmimi açıqlamaları ilə gündəmə çevrilib.***

"Unikal" xəbər verir ki, matçdan sonra keçirilən mətbuat konfransında çıxış edən təcrübəli mütəxəssis Türkiyəyə yönəlik xoş jesti ilə diqqət çəkib.



Belə ki, Qurbanov jurnalistlərə açıqlamasında ""Qalatasaray"ın oyunu var, gəlin, "Qalatasaray"a dəstək olaq", - deyib.

Azərbaycanlı baş məşqçinin bu sözləri qısa zamanda sosial mediada böyük maraq doğurub. Həm Türkiyədən, həm də Azərbaycandan minlərlə azarkeş Qurbanova rəğbət mesajları ünvanlayıb.

Paylaşımlarda "Bir millət, iki komanda", "Həqiqi dostluq budur" və "Qardaşlığın ən gözəl nümunəsi" kimi şərhlər yer alıb.

*Gülayə Mecid*

# Azərbaycanın U-19 millisinin heyətində dəyişiklik edildi

***19 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının heyətində dəyişiklik baş verib.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, Türkiyənin "Ankaragücü" klubunun yarımmüdafiəçisi Həsən Nəzərlinin əvəzinə "Qarabağ"ın oyunçusu Mehdi Mütəllimli U-19-a dəvət alıb. Qeyd edək ki, komanda Avropa çempionatının seçmə mərhələsində noyabrın 12-də Çexiya, 15-də Şimali İrlandiya, 18-də isə Malta yığması ilə qarşılaşacaq.

# İslandiya millisi Azərbaycana qarşı bu futbolçularla oynayacaq

***İslandiya yığmasının DÇ-2026-nın seçmə mərhələsində Azərbaycan və Ukrayna milli komandalarına qarşı keçirəcəyi oyunların heyəti açıqlanıb.***

AFFA-dan "Unikal"a bildirilib ki, baş məşqçi Arnar Qunnlauqsson D qrupunda noyabrın 13-də Bakıda Azərbaycan, 3 gün sonra isə Varşavada Ukrayna seçməsinə qarşı baş tutacaq matçlara 24 futbolçu dəvət edib.

Qapıçılar: Elias Rafn Olafsson ("Midtyulland", Danimarka), Hakon Rafn Valdimarsson ("Brentford", İngiltərə), Anton Ari Eynarsson ("Breydablik");

Müdafiəçilər: Loqi Tomasson ("Samsunspor", Türkiyə), Daniel Leo Qretarsson ("Syenneryuske", Danimarka), Hyordur Byörqvin Maqnusson ("Levadiakos",




Yunanıstan), Aron Einar Qunnarsson ("Al Qarafa", Qətər), Sverrir İnqi İnqason ("Panatinaikos", Yunanıstan), Viktor Palsson ("Horsens", Danimarka), Byarki Steinn Byarkason ("Venesiya", İtaliya);

Yarımmüdafiəçilər: Mikael Eqill Ellertsson ("Cenoa", İtaliya), Gisli Tordarson ("Lex", Polşa), İsak Berqmann Yohannesson ("Köln", Almaniya), Hakon Arnar Haraldsson ("Lill", Fransa), Andri Fannar Baldursson ("Kasımpaşa", Türkiyə), Stefan Teytur Tordarson ("Preston", İngiltərə), Yon Daqur Torsteinsson ("Herta", Almaniya), Kristian Hlinsson ("Tvente", Niderland), Yohann Berq Qudmundsson ("Əl-Zafra", Birləşmiş Ərəb Əmirlikləri), Mikael Nevill Anderson ("Yurqorden", İsveç);

Hücumçular: Andri Qudyonsen ("Blekbörn", İngiltərə), Brinyolfur Villumsson ("Qroningen", Niderland), Albert Qudmundsson ("Fiorentina", İtaliya), Daniel Qudyonsen ("Malmö", İsveç).

Qeyd edək ki, noyabrın 13-də 8-ci km qəsəbə stadionunda keçiriləcək Azərbaycan - İslandiya qarşılaşması Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

# "Qarabağ"ın avrokuboklar statistikası - 200 oyuna 250 qol

***"Qarabağ" avrokuboklarda 200-cü oyununu keçirib və 250-ci qolunu vurub.***

Peşəkar Futbol Liqasından "Unikal"a bildirilib ki, bu, UEFA Çempionlar Liqasının Liqa mərhələsinin IV turuna təsadüf edib.

"Çelsi" ilə oyun Ağdam klubunun qitə kuboklarında ümumilikdə 200-cü matçı kimi tarixə düşüb. Qurban Qurbanovun yetirmələrinin bu qarşılaşmadakı ilk topu Avropa klub turnirlərində vurduğu 250-ci qol olub. Yubiley topuna Leandro Andrade imza atıb. İngiltərə təmsilçisi ilə matç 2:2 hesabı ilə başa çatıb.

"Qarabağ" Çempionlar Liqasında 67, Avropa Liqasında (əvvəl UEFA kuboku) 109, Konfrans Liqasında 16, Kuboklar kubokunda 4, İntertoto kubokunda 4 matça çıxıb. Klub Çempionlar Liqasında 105, Avropa Liqasında (əvvəl UEFA kuboku) 124, Konfrans Liqasında 19, Kuboklar kubokunda 1, İntertoto kubokunda 2 qol vurub. "Köhlən-atlar" bu qarşılaşmalarda 77 qələbə qazanıb, 47 heç-heçə edib cə 76 dəfə uduzub. 251 qol vuran komanda 261 top buraxıb.

Qeyd edək ki, "Qarabağ" avrokuboklarda 1996/1997-ci illər mövsümündə debüt edib.



1996-cı il avqustun 8-də "MüPA" ilə Bakıdakı qarşılaşmada qonaqlar qalib gəlib - 0:1. İlk qola isə Finlandiya təmsilçisi ilə 14 gün sonrakı matçda (1:1, əlavə vaxtda) Bəxtiyar Musayev imza atıb.

# Murad Musayev Rusiyada ən yaxşı seçildi

***Rusiya Premyer Liqasında oktyabr ayının ən yaxşı məşqçisinin adına aydınlıq gəlib.***

QOL.az xəbər verir ki, bu barədə qurumun mətbuat xidməti məlumat yayıb.

Ötən ayın ən yaxşısı adına "Sabah"ın sabiq baş məşqçisi, hazırda "Krasnodar"ı çalışdıran Murad Musayev layiq görülüb. Onun komandası oktyabr ayında çıxdığı 3 matçın hər birində qələbə qazanıb. Hazırda "Krasnodar" Premyer Liqanın turnir cədvəlində 32 xalla liderdir.

Qeyd edək ki, "Krasnodar" Murad Musayevin rəhbərliyi altında Rusiya Premyer Liqasının 2024/2025 mövsümünün qalibi olub.

Xatırladaq ki, mütəxəssis 2021-24-cü illərdə "Sabah"a baş məşqçilik edib.

# "Qarabağ" - "Neftçi" matçının təyinatları açıqlandı

***Misli Premyer Liqasında "Zəfər turu"nun təyinatları açıqlanıb.***



"Unikal" xəbər verir ki, turun mərkəzi görüşü olan "Qarabağ" - "Neftçi" matçını Elçin Məsiyev idarə edəcək.

Əliyar Ağayev isə "Zirə" - "Turan Tovuz" görüşündə iş başında olacaq.

Misli Premyer Liqası

**XI tur**

7 noyabr (cümə)

13:44. "Şamaxı" - "İmişli"

Hakimlər: Rauf Cabarov, Teymur Teymurov, Tərlan Talıbzadə, Vüqar Həsənli.

VAR: Rəvan Həmzəzadə.

AVAR: Cəmil Quliyev.

Hakim-inspektor: Vüsal Əliyev.

AFFA nümayəndəsi: Seymur Səlimli.

Şamaxı şəhər stadionu

16:44. "Qəbələ" - "Sumqayıt"

Hakimlər: Rəşad Əhmədov, Namiq Hüseynov, Eyyub İbrahimov, Kamranbəy Rəhimov.

VAR: Cavid Cəlilov.

AVAR: Kamran Bayramov.

Hakim-inspektor: Feyzulla Feyzullayev.

AFFA nümayəndəsi: Elçin Mehtiyev.

Qəbələ şəhər stadionu

8 noyabr (şənbə)

15:44. "Araz-Naxçıvan" - "Karvan-Yevlax"

Hakimlər: Nicat İsmayıllı, Vüsal Məmmədov, Kərim Zeynalov, Kamran Əliyev.

VAR: Əli Əliyev.

AVAR: Şirmamed Mamedov.

Hakim-inspektor: Ceyhun Haşımov.

AFFA nümayəndəsi: Zaur Hacı-Məhərrəmov.

Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu

18:44. "Zirə" - "Turan Tovuz"

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Emin Əliyev.

VAR: İnqilab Məmmədov.

AVAR: Zöhrab Abbasov.

Hakim-inspektor: Rəhim Həsənov.

AFFA nümayəndəsi: Kifayət Mustafayeva.

Zirə İdman Kompleksinin stadionu

9 noyabr (bazar)

15:44. "Kəpəz" - "Sabah"

Hakimlər: Tural Qurbanov, Asiman Əzizli, Rahil Ramazanov, İslam Məmmədov.

VAR: Kamal Umudlu.

AVAR: Müslüm Əliyev.

Hakim-inspektor: Anar Salmanov.

AFFA nümayəndəsi: Elçin Məmmədov.

Qəbələ şəhər stadionu

18:44. "Qarabağ" - "Neftçi"

Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Pərvin Talıbov, Elvin Bayramov.

VAR: Fərid Hacıyev.

AVAR: Rəhman İmami.

Hakim-inspektor: Babək Quliyev.

AFFA nümayəndəsi: Erkin Hüseynov.

"Azersun Arena"